# QARABAĞ AZƏRBAYCANDIR!



**"Prezident İlham Əliyevin Gürcüstanda səsləndirdiyi fikirlər Ermənistan üçün ciddi siqnaldır"**

3

## Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyindən üç il ötür

5




*İLHAM ƏLİYEV: "Qoşulmama Hərəkatına sədrliyin verilməsi və sonra da onun uzadılması ilə bağlı yekdil qərar ölkələrin Azərbaycana olan münasibətini aydın nümayiş etdirirdi"*


# Səs

№ 197 (6638) 27 oktyabr 2022-ci il. Qiymәti 60 qәpik


# 44 günlük müharibənin başlanmasından ötən bir ay

9



*"Bu gün Ermənistan silahlı qüvvələri döyüş əməliyyatları zonasından kənarda yerləşən Bərdə şəhərini raket atəşinə məruz qoyaraq humanitar atəşkəs rejiminin şərtlərini növbəti dəfə kobud şəkildə pozublar.*

## ŞƏHİDLƏR ÖLMƏZ, VƏTƏN BÖLÜNMƏZ!



7

## YAP-ın yaradılması Ulu Öndərin xalqımız qarşısında misilsiz xidmətlərindəndir



6



16

## Erkən nikahların baş tutmasında günahkar kimlərdir?

## Bu maşınlar Bakıda tıxaca səbəb olur - Bəs çıxış yolu nədir?



## "Milli Məclisdə keçirilən ictimai dinləmə əsl plüralizm nümunəsi oldu"

"Milli Məclisdə "Siyasi partiyalar haqqında" qanun layihəsi ilə ilk ictimai dinləmənin təşkil olunması hər şeydən öncə ictimai rəyə nə dərəcədə həssas yanaşıldığını nümayş etdirdi. Belə ki, ictimai gözləntilərin nədən ibarət olduğunu müəyyənləşdirmək, qanunyaradıcılıq prosesində onların nəzərə alınması bir daha nümayiş...



11

## 2023: Qlobal böhran şəraitində makroiqtisadi göstəricilərimiz nə vəd edir?



# "Təhsil əməkdaşlığımızın əhəmiyyətli hissələrindən biridir"

*Prezident İlham Əliyev Gürcüstanın təhsil və elm nazirini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Gürcüstanın təhsil və elm naziri Mixeil Çxenkelini qəbul edib. Dövlətimizin başçısı bir neçə gün əvvəl Gürcüstana səfərinin uğurla keçdiyini, səmərəli müzakirələrin aparıldığını bildirdi, səfərin ölkələrimiz arasında qardaşlıq əlaqələrinin gələcək inkişafı üçün çox əhəmiyyətli olduğunu vurğuladı, müzakirə olunan məsələlərin siyasi, iqtisadi, nəqliyyat, enerji və digər sahələrdə geniş gündəliyi əhatə etdiyini dedi. Prezident İlham Əliyev qeyd etdi ki, təhsil əməkdaşlığımızın əhəmiyyətli hissələrindən biridir. Dövlətimizin başçısı Gürcüstanda Azərbaycan dilində, Azərbaycanda isə gürcü dilində məktəblərin fəaliyyət göstərməsini bunun yaxşı göstəricisi kimi qiymətləndirdi. Prezident İlham Əliyev Mixeil Çxenkelinin səfərinin ölkələrimizin müvafiq nazirlikləri arasında əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.

Qəbula görə minnətdarlıq edən Mixeil Çxenkeli dövlətimizin başçısının Gürcüstana səfərinin tarixi səfər olduğunu qeyd etdi və əlaqələrimizin genişləndirilməsində səfərin xüsusi önəm daşıdığını dedi. Qonaq ölkələrimizin Təhsil və Elm nazirlikləri arasında çox səmərəli və uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirdi. Görüşdə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

# Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dünyada rolu və nüfuzu artır

*Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul edib.

İsmail Serageldin son dövrlərdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nüfuzunun dünyada daha da artdığını vurğuladı, beynəlxalq təşkilatlar və bir sıra ölkələrin aparıcı institutları ilə birbaşa əlaqələrinin yaradıldığını dedi. O, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinə verdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

İsmail Serageldin Mərkəzin təsis olunmasının 10 illik yubileyi münasibətilə xatirə hədiyyələrini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin yubileyi münasibətilə təbriklərini çatdırdı və yubileyin Bakıda qeyd edilməsinin rəmzi xarakter daşıdığını bildirdi. Dövlətimizin başçısı Mərkəzin beynəlxalq səviyyədə əməkdaşlığının genişlənməsindən, dünyada rolunun və nüfuzunun artmasından məmnunluğunu ifadə etdi.

Görüşdə vurğulandı ki, Azərbaycan Prezidentinin himayəsi altında Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən hər il keçirilən Qlobal Bakı Forumu artıq bütün dünyada aktual məsələlərin müzakirə olunduğu və onların həlli istiqamətində yeni yanaşmaların təklif edildiyi beynəlxalq platforma kimi qəbul olunur.

İsmail Serageldin bildirdi ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi bu il ərzində Çində və Polşada həmin ölkələrin prezidentlərinin himayəsi altında keçirilən beynəlxalq konfranslarda, BMT Baş Assambleyası çərçivəsində ABŞ-da, Cenevrədə Ümumdünya Səhiyyə Təşkilatı və BMT-nin Cenevrə ofisi və Berlində Ümumdünya Səhiyyə Təşkilatı ilə birgə təşkil olunan tədbirlərdə, həmçinin Yaponiyada baş tutan Texnologiya Sammitində və Latviyanın paytaxtında keçirilən "Riqa konfransı 2022"də tərəfdaş kimi çıxış edib.

# "Bəs Azərbaycan?"

*Avstraliya saytı Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları barədə geniş məqalə yayıb*


SPECTATOR | AUSTRALIA
SUBSCRIBE: TRY A MONTH FREE
FLAT WHITE MAGAZINE WORLD NEW ZEALAND FEATURES BOOKS SPECTATOR.CO.UK
Register | Log in
FLAT WHITE
What about Azerbaijan?
Sabina
Getty Images
The following is a letter in reply to What about Armenia? published September 28. The Spectator Australia is not in a position to verify all the historical claims made in either article.
Sabina
26 October 2022
6:00 AM
Sign up to the Morning Double Shot newsletter
The Spectator Australia's Morning Double Shot delivers a hearty breakfast of news and views straight to your inbox
Your email
SIGN UP
MOST POPULAR
1 Confidence through censorship: The (medical) Ministry of Truth
Kara Thomas
2 Vanishing vaccine mandates
Rebecca Weisser
3 Microsoft unveils the latest Pride flag
James Macpherson

Avstraliyanın "spectator.com.au" saytı Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları nəticəsində baş vermiş münaqişənin tarixi barədə məqalə yayıb. AZƏRTAC xəbər verir ki, yazı sentyabrın 28-də bu saytda dərc edilmiş "Bəs Ermənistan haqqında?" adlı məqaləyə cavab olaraq yayımlanıb. Sayt məsələyə aydınlıq gətirilməsi üçün cavab məktubunu dərc edib.

"Bəs Azərbaycan?" adlanan məqalə bu il fevralın 24-də Rusiyanın Ukraynaya hücumu və Avropa İttifaqının buna reaksiyası ilə başlayır. Xatırladılır ki, hücumun ertəsi günü Avropa Şurasının Parlament Assambleyası Rusiyanı səs vermək hüququndan məhrum edən qərar qəbul edib. Avropa Şurasının üzvü olan 42 dövlət bu qərarı dəstəklədiyi halda yalnız Ermənistan onun əleyhinə səs verib. Ermənistan, həmçinin Ukraynanın ərazi bütövlüyünü dəstəkləməyən dövlətlər sırasında yer alıb.

Eyni zamanda, rəsmi İrəvan yeganə postsovet ölkəsidir ki, onun İran və Türkiyə ilə sərhədlərini Rusiya hərbçiləri qoruyur.

Məqalədə Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiası, ötən əsrin 90-cı illərində baş verən Birinci Qarabağ müharibəsi nəticəsində ərazilərimizin 20 faizinin işğal olunmasına da toxunulur. Bildirilir ki, bu işğal nəticəsində 700 mindən çox azərbaycanlı öz ata-baba yurdlarından didərgin düşüb. Həmin vaxt erməni ekspansionizmi Dağlıq Qarabağın erməni əhalisinin "müdafiəsi" ideyasını qorumaq məqsədilə həyata keçirilib. Nəticədə xarici havadarlarının köməyi ilə Ermənistan yalnız Yuxarı Qarabağı yox, ona yaxın olan rayonları da işğal edib.

BMT-nin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən və Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən dərhal çıxarılmasını tələb edən dörd qətnaməsinə baxmayaraq, işğalçı dövlət 30 il ərzində həmin sənədləri icra etməyib.

Münaqişənin başlamasının səbəblərinə toxunan müəllif qeyd edir ki, Moskva tərəfindən qeydə alınmış xronologiyaya əsasən, 1988-ci ilin yanvarında Ermənistanın Qukark və Qafan rayonlarında yaşayan 200 mindən çox azərbaycanlı öz ata-baba yurdlarından zorla qovulub. Digər zorakılıq aktları məhz bu hadisələrdən sonra baş verib.

Qeyd edilir ki, Birinci Qarabağ müharibəsi zamanı ermənilər tərəfindən 20 mindən çox azərbaycanlı qətlə yetirilib, onların 16 mini mülki əhali olub. İşğalı nəticəsində 3890, o cümlədən 71 uşaq hələ də itkin düşmüş hesab olunur. Ermənistan bu gün də həmin şəxslər barədə məlumat verməkdən imtina edir.

Yazıda 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsinə toxunan müəllif cəmi 44 gün ərzində Azərbaycanın ərazi bütövlüyünü bərpa etdiyini vurğulayıb. Məqalədə ermənilərin azad edilmiş ərazilərdə basdırdıqları çoxsaylı minaların yaratdığı problemlərdən də bəhs olunur. Diqqətə çatdırılır ki, azərbaycanlı hərbçilər və mülki vətəndaşlar bu minaların partlaması nəticəsində ya həlak olur, ya da xəsarətlər alırlar.

Qərb ölkələrinin kütləvi-informasiya vasitələrinin məsələni qeyri-obyektiv işıqlandırdığını xatırladan müəllif bildirib ki, əslində münaqişə nəticəsində daha çox azərbaycanlıların əzab çəkməsinə, həlak olmasına baxmayaraq, bəzi KİV-lər ermənilərin guya türklər tərəfindən ikinci soyqırımına məruz qaldıqlarını iddia edir. Lakin bütün faktlar bunun əksini göstərir.

Avstraliyalı oxucuların diqqətini Azərbaycanın çoxmillətli və çoxkonfensiyalı dövlət olmasına cəlb edən müəllif bunun əksi olaraq, bütün xalqların nümayəndələrini öz ərazisindən qovan Ermənistanın monoetnik dövlətə çevrildiyini bildirir. Qeyd edir ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda müharibədə burada yaşayan azsaylı xalqların nümayəndələri döyüşüblər.

Məqalədə Cənubi Qafqazın çoxsaylı xalqların vətəni olduğu xüsusi qeyd edilir. Müəllif ümid etdiyini bildirir ki, bütün bu faciələrə baxmayaraq, əvvəl-axır iki qonşu xalq arasında sülh və bərabərlik qalib gələcək. Avropa İttifaqının bu istiqamətdə səylərini yüksək qiymətləndirən müəllif oktyabrın 6-da Praqada keçirilən dördtərəfli görüşün tezliklə sülh müqaviləsinin imzalanması üçün yaxşı zəmin yaratdığını bildirib.

# Azərbaycan-Gürcüstan münasibətləri hər iki xalqın maraqlarına uyğun inkişaf edir

***Bu gün Gürcüstanla strateji tərəfdaşlıq əlaqələrimiz müttəfiqlik səviyyəsinə yüksəlib. Çünki bir çox sahələr üzrə biz fəal əməkdaşlıq edirik. Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanda mətbuata bəyanatında bildirib. Dövlət başçısı beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan və Gürcüstanın bir-birini daim dəstəklədiyini qeyd edərək deyib ki, eyni zamanda, ikitərəfli formatda həyata keçirilən bir çox önəmli layihələr təkcə ölkələrimiz üçün deyil, bölgə üçün, bütün Avropa üçün xüsusi əhəmiyyət daşıyır. Bəli, bu gün Azərbaycanın xarici siyasətində qonşu dövlətlərlə əlaqələrin genişləndirilməsi mühüm yer tutur.***



Bu baxımdan, ölkəmizin Gürcüstanla münasibətlərinin inkişafı hər zaman diqqət mərkəzindədir. Oktyabrın 24-də Prezident İlham Əliyevin Gürcüstana işgüzar səfəri iki ölkə arasında əlaqələrin daha da dərinləşməsinə böyük təkan verəcək.

## PREZİDENT İLHAM ƏLİYEV: "Gürcüstanla strateji tərəfdaşlıq əlaqələrimiz müttəfiqlik səviyyəsinə yüksəlib"

### İKİ ÖLKƏNİN XALQLARI ƏSRLƏRƏ SÖYKƏNƏN DOSTLUQ, QARDAŞLIQ, MEHRİBAN QONŞULUQ ŞƏRAİTİNDƏ YAŞAMAQDADIR

Prezident İlham Əliyev cənablarının çıxışı zamanı qeyd etdiyi kimi, əsrlər boyu xalqlarımız dostluq, qardaşlıq, mehriban qonşuluq şəraitində yaşamışlar, ölkələrimiz arasında dərin tarixi ənənələrə söykənən əməkdaşlıq müsbət dinamika ilə inkişaf edir. Dövlət başçımız onu da bildirib ki, bizim Gürcüstanla dostluq və qardaşlıq münasibətlərimiz tranzit üçün imkanlar yaradır. "Biz Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ötürmə qabiliyyətini 15 milyon tondan 25 milyon tona qədər çatdırmaq istəyirik. Artıq bütün göstərişlər verilib və vəsait də ayrılacaq. Ona görə Gürcüstanla Azərbaycan arasında nəqliyyat sahəsində sıx koordinasiya aparılmalıdır. Çünki bizim birgə layihələrimiz eyni vaxtda tamamlanmalıdır",-deyən Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanda mətbuata bəyanatında onu da bildirib ki, bu münasibətlər olmadan heç bir ölkə etibarlı tranzit ölkəyə çevrilə bilməz: "Bizim isə Gürcüstanla dostluq, qardaşlıq, tərəfdaşlıq münasibətlərimiz bu imkanları yaradır. Hazırda enerji resurslarına dünyada və Avropada böyük tələbat olduğu üçün Gürcüstanla Azərbaycan bu məsələdə bir cəbhədən hərəkət edərək, bir nöqtəyə vuraraq öz milli maraqlarını təmin edəcək".

İrakli Qaribaşvili: "Gürcüstan Azərbaycan üçün önəmli ölkədir. Eyni zamanda, Azərbaycan da Gürcüstanın strateji tərəfdaşıdır"

Baş nazir qeyd edib ki, bizim həyata keçirdiyimiz layihələr - Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, Orta Dəhliz tarixi layihələrdir. Bu birgə layihələr bundan sonra da davam edəcək və daha da sürətləndiriləcək."Sizin atanızın, ölkənizin Ümummilli Liderinin xatirəsinə bizim dərin ehtiramımız var. O, vaxtilə Gürcüstanda, Tbilisidə olanda demişdi ki, Azərbaycan və gürcü xalqları qonşu olduqları üçün xoşbəxtdirlər. Bizim əcdadlarımız həmin ünsiyyəti yaradıb və bu gün bizim vəzifəmiz ondan ibarətdir ki, əməkdaşlığımızı irəlilədək və gələcək nəsillərə ötürək", - deyə İrakli Qaribaşvili vurğulayıb. Bir sözlə, Azərbaycan-Gürcüstan əlaqələri dövlətlərin və xalqların yaxın qonşuluq və dostluq münasibətlərinin ən yaxşı nümunələrindən biridir. Və sevindirici haldır ki, iki dövlət arasındakı əlaqələr daim yüksələn xətt üzrə inkişaf edir və Azərbaycanla Gürcüstanın qarşılıqlı etimada və çoxşaxəli əməkdaşlığa söykənən münasibətləri regionda sülhün, əminamanlığın və təhlükəsizliyin təmin olunması üçün də əlverişli zəmin yaradıb. Bu xüsusda Gürcüstan-Azərbaycan-Ermənistan məsləhətləşmələri ilə bağlı irəli sürülən təşəbbüs də maraq doğurur və yeni deyil. Azərbaycan hələ torpaqlarının işğal altında olduğu zaman kəsiyində dəfələrlə Ermənistanı təcavüzkar siyasətindən əl çəkməyə, Cənubi Qafqazı sülhün, təhlükəsizliyin və sabitliyin təmin olunduğu bölgəyə çevirə biləcək əməkdaşlıq platformalarında iştirak etməyə dəvət edib. Mövcud şəraitdə isə qarşılıqlı əlaqələrin perspektivi Ermənistanın Azərbaycanın təklif etdiyi və beynəlxalq birlik tərəfindən tanınan təməl prinsiplər əsasında sülh müqaviləsi imzalamasından keçir.



TƏHLİL



Bir sözlə, bütün bu uğurlu addımlar onu deməyə əsas verir ki, hər iki ölkə liderlərinin və xalqlarının iradəsinə söykənərək birlikdə daha böyük uğurlara imza atacaq, Qafqaz xalqlarının təhlükəsiz və firavan gələcəyini təmin edəcəklər.

**RƏFİQƏ HÜSEYNOVA**

# Azərbaycan yazıçıları tarixi gün yaşadılar



1934-cü il iyunun 13-də Bakıda ilk dəfə Azərbaycan yazıçılarının I Qurultayında keçirilmişdir. Həmin zamana qədər Azərbaycan yazıçıları ayrı-ayrı ədəbi birliklərin və məclislərin tərkibində fəaliyyət göstərirdilər. 1923-cü ildə Azərbaycan yazıçılarını bir təşkilatda birləşdirmək zərurəti meydana çıxarkən bir neçə yazıçı çap etdirdikləri müraciətdə "Türk ədib və şairlər ittifaqı dərnəyi" təsis etdiklərini bildirdilər. Həmin ədəbi birlik "İldırım" adlanırdı. "Qızıl qələmlər" ədəbi cəmiyyəti də təxminən bu dövrlərdə formalaşmış, öz ətrafına gənc ədəbi qüvvələri toplamışdı. Bu cəmiyyət əsaslı və ədəbi təşkilat kimi 1925-ci il dekabrın 25-də Bakıda yaradıldı, ədəbi dərnəkləri öz ətrafında birləşdirdi. "Qızıl qələmlər" cəmiyyəti tez-tez müşavirələr, ədəbi gecələr, görüşlər, məruzələr təşkil edir, tədbirlər həyata keçirirdi. Mənbələrdə qeyd olunduğu kimi, "Maarif və mədəniyyət" jurnalında (indiki "Azərbaycan" jurnalında), "Kommunist" və "Gənc işçi" qəzetlərində müntəzəm verilən ədəbi materiallar, "Qızıl qələmlər", "Oktyabr alovları" almanaxları və ayrı-ayrı məcmuələr ədəbiyyatın təbliğinə, kütləvi surətdə yayılmasına xidmət edirdi. 1927-ci il iyul ayının əvvəllərində Azərbaycan yazıçılarının birinci ümumi yığıncağında bütün ədəbi qüvvələri bir təşkilat ətrafında birləşdirmək qərara alındı. Beləliklə, Azərbaycan Yazıçılar Cəmiyyətinin müvəqqəti idarə heyəti yarandı. Bakıda Ümumazərbaycan yazıçılarının birinci (13.01.1928) və ikinci qurultayı (20.X.1929) çağırıldı. ÜİK(b)P MK-nın ədəbi-bədii təşkilatların yenidən qurulması haqqında 1932-ci il 23 aprel tarixli qərarından sonra Azərbaycan Yazıçılar Cəmiyyətinin yenidən qurulması haqqında təşkilati tədbirlər görüldü və Azərbaycan Yazıçılar İttifaqı yaradıldı. Bu gün isə artıq Azərbaycan yazıçılarının XIII qurultayı keçirilir. Tarixin müxtəlif dönəmlərində keçirilən qurultaylar yadda qalmış və milli şüurun oyanışında, Qafqazda, Şərq aləmində milli-azadlıq düşüncəsinin yayılmasında və dəstəklənməsində misilsiz rol oynamış, eyni zamanda Azərbaycan maarifçiliyinin, ədəbiyyatının inkişafına önəmli təkan vermiş yazarların iştirakı ilə baş tutmuşdur. Bu gün keçirilən Qurultaya Azərbaycan Yazıçılar Birliyinin (AYB) dəvəti ilə Türkiyə, Rusiya, Litva, İsrail, Pakistan, Gürcüstan, Almaniya, İraq, Belarus və İrandan 20-dən çox qonaq, AYB-nin üzvləri arasından isə 330-dək nümayəndə iştirak edib. Azərbaycan Yazıçılarının XIII qurultayının iştirakçılarına Azərbaycan Prezidenti İlham Əliyevin ünvanladığı məktubda bildirilir ki, Azərbaycan xalqı şeirə, sənətə böyük qiymət verərək, cəmiyyət və gələcək nəsillər qarşısında dərin mənəvi məsuliyyət hissi ilə yazıb yaradan qələm sahiblərinə daim ehtiram bəsləmişdir: "Onlar çoxəsrlik söz xəzinəmizin zənginləşməsi, mədəni dəyərlərimizin saflığının qorunması və ictimai fikrin milli özünüdərk zəminində formalaşması işinə misilsiz töhfələr bəxş etmişlər. Ədəbiyyatımızı milliliklə bəşəriliyin ahəngdar vəhdətində humanist xarakterli ideya-fəlsəfi axtarışları ilə dünya ədəbi irsinin tərkib hissəsinə çevirmiş görkəmli söz ustalarının xatirəsi ölkəmizdə əziz tutulur. Xalqımızın qəlbində azadlıq duyğularının güclənməsi, insanlarımızın ruhuna mübarizə əzminin aşılanması və müstəqilliyimizin mənəvi zəmininin möhkəmlənməsi yolunda şair və yazıçılarımız xüsusi fədakarlıq göstərmişlər".

Azərbaycan yazıçıları Qalib Xalq olaraq bu gün bu mötəbər tədbiri keçirdi. Bu tarixi qələmə alıb, gələcək nəsillərə ötürülməsində Azərbaycan şair və yazıçılarının da rolu müstəsnadır. Bu gün elə bir zaman yetişib ki, tarixi həqiqətləri böyük əsərlərə köçürülməsi zəruridir. İkinci Qarabağ müharibəsi və onun iştirakçıları, qazanılan qələbə ilə bağlı Azərbaycan qələm sahibləri obrazlı bir şəkildə mükəmməl əsərlər ortaya qoymalıdırlar. "Mədəni həyatımızın mühüm hadisələrindən olan qurultayınızın parlaq Qarabağ zəfəri sayəsində tariximizin şanlı səhifələrini yaşadığımız bir dövrə təsadüf etməsi yüksək ideyalı bədii əsərlərin ərsəyə gətirilməsi naminə bir sıra mühüm vəzifələr irəli sürür" - deyə məktubda bildirilib. Bu gün ədəbi mühit üçün zəngin mənbə var. Onu bu günümüzdən sabahımıza çatdırmaqda qələm sahiblərinin üzərinə böyük məsuliyyət düşür.

***Nəzakət ƏLƏDDİNQIZI***

# YAP Binəqədi rayon təşkilatının fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər







Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30-cu ildönümü münasibətilə partiyanın Mərkəzi Aparatı tərəfindən hazırlanmış və İdarə Heyətinin qərarı ilə təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq YAP-ın Bakı şəhəri üzrə rayon təşkilatlarının gənc fəallarının Heydər Əliyev Mərkəzinə ekskursiyası davam edir.

Oktyabrın 25-də YAP Binəqədi rayon təşkilatının fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər. Partiya fəalları Ulu Öndərin zəngin və mənalı ömür yolunu əks etdirən eksponatlarla, əyani vəsaitlərlə tanış olublar.

# Simon Kopadze: "Prezident İlham Əliyevin Gürcüstanda səsləndirdiyi fikirlər Ermənistan üçün ciddi siqnaldır"



Azərbaycan ilə Gürcüstan regionda sülhü, sabitliyi, təhlükəsizliyi və inkişafı təmin etmək üçün ciddi səylər göstərirlər. Biz bunu Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana səfəri zamanı Baş nazir İrakli Qaribaşvili ilə görüşdən sonra səslənən fikirlərdən də aydın gördük. Hər iki lider cəmiyyətə çox sağlam və lazımi mesaj verdilər. Bu sözləri AZƏRTAC-a müsahibəsində politoloq, Gürcüstan-Qafqaz Strateji Araşdırmalar İnstitutunun prorektoru Simon Kopadze söyləyib.

Onun sözlərinə görə, Ermənistan isə son 50 ilə yaxın bir vaxtda pozuculuq siyasəti və fəaliyyəti ilə bu inkişafa mane olur, təhlükəsizliyə və sülhə təhdid yaradır. Azərbaycan Prezidentinin Gürcüstanda səsləndirdiyi fikirlər Ermənistan üçün yaxşı dərsdir, ciddi siqnaldır. Ermənistan rəhbərliyi bundan bir nəticə çıxarmalıdır və cəfəng "böyük Ermənistan" xülyasından əl çəkib Qafqaz platformasına qoşulmalıdır. Nəhayət Ermənistan rəhbərliyi, xüsusən də separatçılar başa düşməlidirlər ki, inkişaf üçün regionda sülh olmalıdır.

S.Kopadze deyib: "Regionda sabitlik və təhlükəsizlik mühiti təkcə Azərbaycan və gürcü xalqlarının deyil, erməni xalqının da mənafeyinə xidmət edəcək. Ermənistan regionda həyata keçirilən layihələrə qoşulmağa, birgə sülh şəraitində yaşamağa məcburdur. Çünki başqa yol yoxdur".

# "Qanun layihəsi ilə bağlı dinləmə demokratik müzakirə ənənəsindən xəbər verir"

"Dünən Milli Məclisdə "Siyasi partiyalar haqqında" qanun layihəsi ilə bağlı ictimai dinləmə keçirildi. Əsas məqsədi yeni qanun layihəsinin siyasi partiya sədrlərinin ilə birgə müzakirəsi olan bu dinləmənin təşkil edilməsi Milli Məclisin müzakirələrə açıq olduğunu nümayiş etdirdi. Çünki bu müzakirələr qanun layihəsi ilə bağlı siyasi partiyaların öz rəy və təkliflərini təqdim etməyə imkan yaratmaqla yanaşı həmçinin təmsil etdikləri partiya üzvlərinin iradəsini sərbəst ifadə etmək imkanı demək idi". SİA xəbər verir ki, bu sözləri deputat Vüqar Bayramov deyib.




Onun sözlərinə görə, son dinləmə eyni zamanda bu sahədə ictimai rəyin öyrənilməsinə imkan verməklə gələcəkdə bu tendensiyanın davam etdirilməsinə şərait yaradacaq: "Qeyd etmək lazımdır ki, belə müzakirələrin keçirilməsi ali qanunverici orqanla siyasi partiyalar arasında əlaqələrin inkişafına xüsusi təkan verir. Müxtəlif sahələrdə dövlət siyasətinin formalaşması, həyata keçirilməsi və qərarların qəbulu zamanı ictimai-siyasi rəyin nəzərə alınması plüralizmin varlılığının əsas göstəricisi kimi qiymətləndirilməlidir".

Deputat sözlərinə belə davam edib: "Dinləmədən də göründüyü kimi, siyasi partiya rəhbərləri və nümayəndələrinin çıxışlarında da bu cür görüşlərin keçirilməsi vacib hesab olunur. Bu baxımdan, qanun layihəsi hazırda reallaşan islahatlar kontekstində yeni siyasi sistemin tələblərinə cavab verəcək mütərəqqi bir sənəd olacaqdır. Digər tərəfdən, qanun layihəsinin hazırlanması zamanı siyasi partiyalardan daxil olan təkliflər nəzərə alınmış, beynəlxalq təcrübəyə istinad edilmişdir ki, buda layihənin əhəmiyyətini göstərən əsas faktorlardan hesab olunur".

***Ayşən Vəli***

# Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyindən üç il ötür




*İLHAM ƏLİYEV: "Qoşulmama Hərəkatına sədrliyin verilməsi və sonra da onun uzadılması ilə bağlı yekdil qərar ölkələrin Azərbaycana olan münasibətini aydın nümayiş etdirirdi"*

***Xarici İşlər Nazirliyi (XİN) Azərbaycanın Qoşulmama Hərəkatına (QH) sədrliyinin üç illik dövrü barədə açıqlama yayıb. Açıqlamada deyilir: "Bu gün, Azərbaycan Respublikasının Qoşulmama Hərəkatına sədrliyi təhvil almasından üç il ötür. Sədrliyimiz COVID-19 pandemiyasının qlobal miqyasda yayılması ilə eyni dövrə təsadüf etsə də, ölkəmiz QH sədrliyi qismində irəli sürdüyü və Hərəkata üzv dövlətlər tərəfindən yekdilliklə dəstəklənən beynəlxalq əhəmiyyətli uğurlu təşəbbüslər sayəsində pandemiya ilə əlaqəli çətinlikləri beynəlxalq əməkdaşlıq imkanlarına çevirməyi bacarıb".***

Həmçinin o da bildirilir ki, QH-yə sədrliyin üç il müddətinə nəzərdə tutulmasına baxmayaraq, ötən ilin iyul ayında Hərəkat üzvlərinin yekdil qərarı ilə ölkəmizin Hərəkata sədrlik müddəti 2023-cü ilin sonunadək uzadılıb. Bəli, milli maraqlara əsaslanan xarici siyasət kursu həyata keçirən müstəqil Azərbaycanın uğurla təmsil olunduğu beynəlxalq təşkilatlardan biri də Qoşulmama Hərəkatıdır. Respublikamız 2011-ci ildə Qoşulmama Hərəkatına tamhüquqlu üzv qəbul olunub və həmin vaxtdan etibarən qurumun fəaliyyətinə özünün töhfələrini verib. Bu da Hərəkatda ölkəmizin nüfuzunun artmasını şərtləndirib. Xüsusilə də, 2019-cu ildə Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyə başlamasından sonra dünyanın ikinci ən böyük təşkilatında ciddi canlanma baş verdi. Eyni zamanda, bir məqamı xüsusi vurğulamaq yerinə düşər ki, Qoşulmama Hərəkatı 44 günlük Vətən Müharibəsi dövründə də yetərincə ədalətli mövqe sərgiləyib, bəyanatlar verib. Qoşulmama Hərəkatı öz prinsiplərinə, dəyərlərinə sadiq, haqqın yanında olan təşkilatdır. Digər tərəfdən, 2011-ci ildə Qoşulmama Hərəkatına daxil olmağımızla bağlı qərar Azərbaycan üçün xarici siyasət davranışında prioritet yeri tutan Ermənistanla münaqişə kontekstində çox vacib idi. Hadisələr göstərdi ki, Prezident İlham Əliyev 10 il əvvəl Azərbaycanı dünyanın ən böyük ikinci təşkilatına üzv etməklə illər sonrakı qələbənin əsasını qoydu.Beləliklə də, qısa müddət ərzində ölkəmiz Hərəkatda olduqca böyük nüfuz və etimad qazandığı üçün, ildə bütün üzv dövlətlərin yekdil qərarı ilə 2019-2022-ci illər üçün Qoşulmama Hərəkatına sədrlik Azərbaycana həvalə edildi. Bu, eyni zamanda Azərbaycan Prezidentinin qlobal liderlik fəaliyyətinə verilən yüksək qiymət və Azərbaycana olan etimadın, inamın növbəti təzahürüdür. Prosedura görə, Azərbaycanın sədrlik müddəti 2022-ci ildə bitməlidir, lakin hərəkata üzv dövlətlərin yekdil istəyi ilə bu müddət 2023-cü ilə qədər uzadıldı.

### AZƏRBAYCAN QOŞULMAMA HƏRƏKATINA ÜZV ÖLKƏLƏR ARASINDA HƏMRƏYLİYİN GÜCLƏNDİRİLMƏSİNƏ XÜSUSİ ÖNƏM VERİR

Qeyd edək ki, Qoşulmama Hərəkatı təkcə ölkələr üçün maraqlarını müdafiə etmək və bir-birini dəstəkləmək deyil, beynəlxalq arenada daha fəal rol oynamaq üçün platforma da ola bilər. Azərbaycanın hər bir təşəbbüsü əməkdaşlığın inkişafına, regionda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsinə, dünyada əks qütblər arasında birliyin, həmrəyliyin yaradılmasına xidmət edir. Bu baxımdan, ölkəmiz beynəlxalq aləmdə sabitləşdirici faktor kimi mövqeyini möhkəmləndirir. Azərbaycanın təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin müzakirə üçün seçdiyi mövzu da bu kimi məqamlara aydınlıq gətirir. Bakı konfransında Qoşulmama Hərəkatının üzv dövlətlərinin "Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi"nə öz töhfələrini verəcəklərinə əminlik ifadə edildi.".Göründüyü kimi, hər zaman qlobal təşəbbüslər müəllifi İlham Əliyevin irəli sürdüyü daha bir təklif reallığa çevrildi. Ümumiyyətlə, Azərbaycan Prezidentinin Qoşulmama Hərəkatına sədrlik etdiyi dövrdə irəli sürdüyü qlobal təşəbbüslər beynəlxalq birlik tərəfindən birmənalı olaraq təqdir edilib. Bu, bir daha təsdiq edir ki, Azərbaycan 120 əsas üzvü, 17 müşahidəçi dövləti və 10 müşahidəçi beynəlxalq təşkilatı birləşdirən Qoşulmama Hərəkatının fəaliyyətinə mühüm töhfələr verir, hətta onun artıq təşkilata çevrilməsi istiqamətində vacib addımlar atır. Qoşulmama Hərəkatının tamhüquqlu üzvü olan Azərbaycan təşkilatın ruhuna və prinsiplərinə sadiq olduğunu bir daha dünyaya nümayiş etdirir..Eyni zamanda, Qoşulmama Hərəkatına üzv dövlətlər quruma 3 illik sədrliyi 2022-ci ildə bitməli olan Azərbaycana Hərəkata əlavə bir il də sədrlik etmək barədə müraciət ünvanlamaları və bu müaciət respublikamız tərəfindən müsbət dəyərləndirilməsi, qısa müddət ərzində ölkəmiz Hərəkatda olduqca böyük nüfuz və etimad qazanması reallığını təsdiqidir. Bir sözlə, bütün bu faktlar bir daha onu göstərir ki, Azərbaycan pandemiya şəraitinin yaratdığı çətinliklərə baxmayaraq, Qoşulmama Hərəkatına sədrlik fəaliyyətini uğurla həyata keçirir. Məhz Qoşulmama Hərəkatına üzv dövlətlərin 3 illik sədrliyi 2022-ci ildə bitməli olan Azərbaycana Hərəkata əlavə bir il də sədrlik etmək barədə müraciətləri isə dünyada ölkəmizə, onun Liderinə olan böyük inamın və etimadın ifadəsidir. Bundan başqa, pandemiyaya qarşı milli səviyyədə nümunəvi şəkildə mübarizə aparan respublikamız 30-dan çox dövlətə də dəstək verib. Respublikamızın "peyvənd millətçiliyi"nə qarşı qətiyyətlə mübarizə aparması da Qoşulmama Hərəkatına üzv dövlətlərin mənafelərinə tam uyğundur. Eyni zamanda, Azərbaycanın Qoşulmama Hərəkatı adından irəli sürdüyü təşəbbüs BMT-nin İnsan Hüquqları Şurasında dəstəklənib. Və bu gün Prezident İlham Əliyev Qoşulmama Hərəkatının sədri kimi bütün üzv ölkələrin maraqlarını, beynəlxalq hüququn norma və prinsiplərini müdafiə edərək böyük etimad qazanması Azərbaycanın dünyada qəbul olunan norma və prinsiplərə necə hörmətlə yanaşdığının göstəricisidir. Göründüyü kimi, Qoşulmama Hərəkatına üzv dövlətlərin yekdilliklə Azərbaycanın sədrlik müddətinin daha bir il uzadılması barədə qərarı həm də Prezident İlham Əliyevin dünyadakı nüfuzunun daha bir göstəricisi və onun şəxsiyyətinə verilən yüksək dəyərin ifadəsidir. Bəli, bu gün Ona inanırlar və irəli sürdüyü hər bir təklifləri bilavasitə dəstəkləyirlər. Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik müddətinin daha bir il uzadılması təşəbbüsünün irəli sürülməsi amili də bu kimi mühüm, prinsipial gerçəklikləri növbəti dəfə təsdiqləmiş olur.Bir sözlə, bütün göstərilənlər onu deməyə əsas verir ki, dövlət başçısının təşəbbüsləri qlobal miqyasında beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir. Bu da onu göstərir ki, son 19 ildə Azərbaycanda həyata keçirilən mühüm tədbirlər beynəlxalq birliyin Azərbaycana inamının, etimadının təzahürü, ölkəmizin və dövlətimizin başçısının qlobal miqyasda nüfuzunun göstəricisidir. Nəticədə isə, dövlət başçımızın dediyi kimi: "Biz həmrəylik, qarşılıqlı dəstək və təsisatlarımızın gücləndirilməsində tərəqqinin şahidi olacağıq".

**RƏFİQƏ KAMALQIZI**

# Yeni Azərbaycan Partiyası - 30

# YAP-ın yaradılması Ulu Öndərin xalqımız qarşısında misilsiz xidmətlərindəndir

*1991-ci ilin oktyabrında Azərbaycan Respublikasının Müstəqillik Aktı imzalansa da, o vaxtkı səriştəsiz hakimiyyətin uğursuz addımları nəticəsində xalqımız dövlət müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdi. Müstəqilliyin ilk illərində Azərbaycanın başına gətirilən ağır bəlalar, eyni zamanda torpaqlarımızın Ermənistan tərəfindən işğalı, hətta dövlət müstəqilliyinin itirilmə təhlükəsi həmin dövrdə hakimiyyətdə olan səriştəsiz rəhbərlərin xalqın taleyinə biganə yanaşmasının məntiqi nəticəsi idi.*



*Sevinc Qasımova*
*YAP Gənclər Birliyinin sədr müavini*

O vaxtkı hakimiyyətin səriştəsizliyi, qeyri-peşəkarlığı və xəyanəti nəticəsində ölkəmizin müstəqilliyi təhlükə altına düşmüşdü. Həmin dövrdə ölkədə baş verən xoşagəlməz proseslər, siyasi qeyri-sabitlik, iqtisadi tənəzzül müstəqilliyimizə böyük zərbə vurdu. Belə bir vəziyyətdə cəmiyyətimizin böyük hörmətə malik olan insanlar, ziyalıları ulu öndər Heydər Əliyevin ətrafında birləşərək Yeni Azərbaycan Partiyasını yaratmaq qərarına gəldilər. Otuz il əvvəl, 1992-ci il noyabrın 21-də Ulu öndər Heydər Əliyevin rəhbərliyi və sədrliyi ilə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Bu hadisə ölkəmizin gələcəyi üçün çox əlamətdar və tarixi bir hadisə idi. YAP-ın yaradılması və Heydər Əliyevin partiyaya sədr seçilməsi o dövrdə Respublikamızda mövcud olan gərgin və təhlükəli ictimai-siyasi vəziyyətdən irəli gələn tarixi zərurət idi.

Demokratiyanın nə olduğunu anlamayan o vaxtkı iqtidar hər vasitə ilə Yeni Azərbaycan Partiyasının yaradılmasının qarşısını almağa çalışırdılar. Paytaxtda demokratik proseslərin həyata keçirilməsi mümkün olmadığından təsis konfransı Naxçıvanda keçirildi. Ulu öndərin müdrikliyi və cəmiyyətdəki nüfuzu nəticəsində partiya qarşısında yaradılmış bütün maneələr dəf edildi. Yeni Azərbaycan Partiyası təşkilatlandı və qısa müddətdə xalqın etimadını qazandı. 1992-ci ildə Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılması və bir il sonra 1993-cü ildə Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişi Ulu Öndərə ümumxalq məhəbbətinin və inamının təcəssümü idi. Beləliklə, 1993-cü ildə xalqın dəstəyi sayəsində Ulu Öndərin siyasi hakimiyyətə gəlməsi ilə YAP hakim partiyaya çevrildi.

Yeni Azərbaycan Partiyasının yaradılması Ulu Öndərin xalqımız və dövlətçiliyimiz qarşısındakı misilsiz xidmətlərindəndir. Partiya yarandığı gündən ölkəmizdə siyasi sabitliyin bərpa olunması istiqamətində mühüm addımlar atmışdır. Həmin dövrdə xalqın tələbi ilə hakimiyyətə gələn Ulu Öndər qısa zamanda vəziyyəti sabitləşdirdi və bu, ölkəmizin inkişaf yoluna qədəm qoymasına imkan verdi. Beləliklə, ulu öndər Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan Respublikası əsl müstəqillik əldə etdi.Yeni Azərbaycan Partiyasının siyasi mədəniyyəti, siyasi prosesləri sivil yollarla həyata keçirməsi cəmiyyət tərəfindən dəstəkləndi. Partiyanın ictimai-siyasi ənənələri Azərbaycanın gələcək demokratik inkişafının siyasi əsasını qoydu. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkədə siyasi və iqtisadi sabitlik bərqərar oldu, siyasi sistemin təkmilləşdirilməsi istiqamətində ciddi addımlar atıldı, müstəqil Azərbaycan Respublikasının yeni Konstitusiyası qəbul edildi. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində sosial-iqtisadi tənəzzülün qarşısı alındı. Ölkə iqtisadiyyatının inkişafı ilə bağlı çox ciddi islahatlar həyata keçirildi. Ulu öndər ölkəmizi dövrün ən ağır sınaqlarından yüksək məharətlə çıxararaq müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, olduğunu sübut etdi.Heydər Əliyev müstəqil Azərbaycanı qoruyub saxlamaqla yanaşı, ölkənin ictimai-siyasi, sosial-iqtisadi tərəqqisinə nail olmaqla dünyanın qabaqcıl dövlətlərindən birinə çevirdi.

Bu dövrdə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi nəticəsində Yeni Azərbaycan Partiyası cəmiyyətimizin aparıcı siyasi qüvvəsi olaraq mühüm inkişaf yolu keçdi və və ümumxalq partiyasına çevrildi. Özünün dediyi kimi "dününün, bu günün və sabahın partiyası" adını qazanaraq regionun ən güclü partiyalarından birinə çevrildi.Ulu Öndər Heydər Əliyev 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına müraciət edərək öz namizədliyini siyasi varisi İlham Əliyevin xeyrinə geri götürdüyünü və seçkilərdə Prezidentliyə namizəd Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırdığını bildirdi. Ulu Öndər Heydər Əliyevin doğma xalqına ünvanladığı həmin müraciətdə deyirdi: "O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Beləliklə, 2003-cü ilin 15 oktyabr tarixində keçirilmiş seçkilərdə seçicilərin 76 faizdən çoxu cənab İlham Əliyevə səs verərək Ulu öndər Heydər Əliyevin siyasi kursuna sadiqliyini nümayiş etdirdi. 2003-cü ildən başlayaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz sosial-iqtisadi inkişaf yolunda bir çox uğurlara imza atdı, mühüm nəticələr əldə etdi. Bu dövrdə sosial-iqtisadi inkişaf strategiyasının uğurla davam etdirilməsi nəticəsində bütün sahələr üzrə mühüm naliyyətlər əldə edildi. Əldə olunan uğurların bəzilərinə diqqət yetirək:

* Prezident İlham Əliyev əsası 90-cı illərin sonlarında qoyulan neft-qaz nəqli strategiyasını daha da irəli apardı, ölkənin müstəqilliyinin daha da möhkəmlənməsinə, Azərbaycanın regional və qlobal enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan ölkəyə çevrilməsinə nail oldu.

* Ölkə iqtisadiyyatının neftdən asılılığının aradan qaldırılması prinsipinə əsaslanan islahat strategiyası nəticəsində ötən illər ərzində qeyri-neft sektorunda hər il artım baş verdi.

* Ötən illərdə regionların sosial-iqtisadi inkişafına dair bir neçə Dövlət Proqramı uğurla həyata keçirildi. Regionlarda həyata keçirilən layihələrə hər il milyardlarla manat vəsait ayrıldı. Bu investisiyalar bölgələrdə sosial-iqtisadi inkişaf üçün ən vacib şərti-infrastrukturun yenidən qurulmasını və inkişafını təmin etmiş oldu.

* Məşğulluğun təmin olunması ilə bağlı həyata keçirilən layihələr nəticəsində ölkəmizdə yüz minlərlə yeni iş yerləri açıldı.

* Azərbaycanın xarici siyasətində yeni mərhələnin əsası qoyuldu. Xarici siyasət kursu Azərbayanın milli maraqlarının prinsipial şəkildə qorunmasına və ölkənin uzunmüddətli inkişafına, regionda və dünyada mövqeyinin daha da möhkəmləndirilməsinə yönəldi. Ötən müddət ərzində bu kurs Azərbaycanın regionda söz sahibi olmasına, beynəlxalq imicinin möhkəmləndirilməsinə və dünyada rolunu artırmasına imkan verdi. Bu gün Azərbaycanın regionda lider ölkə olduğunu onun əksər beynəlxalq tərəfdaşları qəbul edir və bununla hesablaşır.

* Azərbaycan regional və qlobal təhlükəsizliyin təmin edilməsində, eləcə də enerji təhlükəsizliyinə nail olunmasında etibarlı və stabil tərəfdaş kimi qəbul edilir.

* Milli maraqlara əsaslanan müstəqil xarici siyasətin əsas prioritetləri daha da təkmilləşdirildi. Azərbaycanın türk dünyasına inteqrasiyasının daha da dərinləşdirilməsi, türkdilli dövlətlərlə ikitərəfli və çoxtərəfli əlaqələrin inkişafı əsas prioritet istiqamətlərdən oldu.

* Prezident İlham Əliyev ilk rəsmi xarici səfərini 2004-cü ildə Türkiyəyə etdi. Bu onu göstərdi ki, Azərbaycanın xarici siyasətinin əsas prioriteti Türkiyə ilə strateji müttəfiqlik və qardaşlıq münasibətlərinin daha da dərinləşdirilməsi olacaq. Bu səfər Azərbaycanla Türkiyə arasında münasibətlərdə yeni mərhələnin başlanğıcı oldu.

* Ölkənin hərbi baxımdan gücləndirilməsi və regioun ən güclü silahlı qüvvələrinə malik olması vəzifəsi qarşıya qoyuldu və ötən dövr ərzində ordu quruculuğu sahəsində mühüm uğurlar əldə edildi. Bu məqsədə Azərbaycanın sürətli iqtisadi inkişafı sayəsində nail olundu, çünki ölkədə müasir silah və hərbi texnika ilə təchiz edilmiş döyüş qabiliyyətinə malik ordunun yaradılması və saxlanılması üçün külli miqdarda vəsait tələb olunurdu.Beləliklə, ötən illərdə Azərbaycan Prezident İlham Əliyevin güclü ordu quruculuğu siyasəti nəticəsində, beynəlxalq hesabatlarda qeyd olunduğu kimi, Ermənistan üzərində əzici hərbi üstünlük əldə etdi.

Sözsüz ki, yuxarıda qeyd etdiyimiz istiqamətlər ötən dövr ərzində əldə olunmuş uğurların bir hissəsidir. Bu illər ərzində həyata keçirilən məqsədyönlü siyasət nəticəsində 44 günlük Vətən Müharibəsində Azərbaycan tarixi qələbə qazanaraq 30 illik işğala son qoydu. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan Ordusu Azərbaycanın ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Azərbaycan ordusu düşməni doğma torpaqlarımızdan qovaraq tarixi missiyanı yerinə yetirdi. Beləliklə, Prezident, Partiyanın Sədri cənab İlham Əliyev tərəfindən ötən dövr ərzində həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan xalqı, o cümlədən Yeni Azərbaycan Partiyası ali məqsədinə nail oldu. Prezident İlham Əliyev 44 günlük Vətən Müharibəsində gənclərin rolunu yüksək qiymətləndirərək demişdir:` "Siyasi, iqtisadi, hərbi, mənəvi istiqamətlərdə, gənc nəslin tərbiyə edilməsi istiqamətində məqsədyönlü siyasət aparılırdı və elə gənc nəsil yetişdi ki, canını fəda etdi torpaq uğrunda. Elə gənc nəsil yetişdi ki, öz qanı-canı bahasına torpağımızı düşmənin əlindən aldı. Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər".

Beləliklə, Azərbaycan Gəncliyi 2 fevral tarixini ölkəmizdə Gənclər Günü elan edən Ulu Öndər Heydər Əliyevin tövsiyələrini yerinə yetirmiş oldu, Prezident İlham Əliyevin ümidlərini layiqincə doğrultdu.Bu gün Azərbaycan dünyada yeni reallıqlar yaradan qalib bir xalq kimi, regionda daha çox hesablaşılan bir ölkə kimi qəbul olunur. Bəli, ölkəmizdə bütün sahələrdə əldə olunan uğurlar, Azərbaycanın davamlı inkişafı, qazanılmış tarixi Qələbə Yeni Azərbaycan Partiyasının da qarşısında yeni vəzifələr qoyur. Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin partiyanın VII qurultayındakı çıxışı zamanı söylədiyi kimi, "Yeni Azərbaycan Partiyası bundan sonra da bütün ölkəmizdə gedən proseslərin mərkəzində olacaq." Partiyanın qarşıya qoyduğu yeni vəzifələr uğurla reallaşdırılacaq və ölkəmiz daha da inkişaf edərək yeni-yeni zəfərlər qazanacaq.

# ŞƏHİDLƏR ÖLMƏZ, VƏTƏN BÖLÜNMƏZ!




## Bölgələrdə torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi ehtiramla anılır









***Dünən 44 günlük Vətən müharibəsində Şəhid olan Gədəbəy rayonunun Novoivanovka kənd sakini Hacıyev Şəhriyar Şahlar oğlunun ikinci ildönümü münasibətilə YAP Gədəbəy rayon təşkilatının əməkdaşı, Gədəbəy rayon İH Başçısı aparatının məsul işçiləri və kənd camaatının iştirakı ilə məzarı ziyarət olundu, ruhuna dualar oxundu, əziz xatirəsi böyük ehtiramla yad edildi. Şəhid atası dövlət tərəfindən onlara göstərilən diqqət və qayğıya görə Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevə, Birinci Vitse-Prezident Mehriban xanım Əliyevaya öz minnətdarlığını bildirdi.***

Lənkəranda torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində daha bir addım atılıb. SİA-nın məlumatına görə, oktyabrın 25-də Lənkəran rayonunun Ürgə kəndində Vətən müharibəsi şəhidləri İbadlı Araz Babəli oğlunun və İbadzadə Zabil Fikrət oğlunun xatirəsinə inşa edilən xatirə bulaq kompleksinin açılışı olub.

Dövlət himninin səslənməsindən sonra torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı çıxış edərək bildirib ki, şəhidlərimiz Vətən sevgisinin ən kamil formasını yaşayan ali şəxslərdir. Onun sözlərinə görə, bəşər övladı fərdiyyətçilik şüurundan ümummilli şüura keçə bilirsə, Vətən üçün yaşayıb uğrunda şəhadətə qovuşursa, torpaq üçün ölməyi alın yazısı kimi sevinclə qarşılayırsa və el qeyrətini çəkə bilirsə, o zaman ŞƏHİD olur. İcra başçısı bildirib ki, şəhidlərin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı görülən işlər və irəli sürülən təşəbbüslər gənc nəslin vətənpərvər ruhda tərbiyə almasında misilsiz əhəmiyyətə malikdir. Qəhrəman övladların yetişməsində valideynlərin əvəzsiz rolu barədə danışan icra başçısı şəhid və qazi, habelə Vətən müharibəsi iştirakçılarının valideynlərinə təşəkkürünü bildirib. T.Qaraşov şəhid ailələrinin, qazilərin və Vətən müharibəsi iştirakçılarının qayğı və diqqətlə əhatə olunduğunu qeyd edib. İcra başçısı çıxışında cənab Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xüsusi diqqət və qayğısı nəticəsində şəhidlərimizin adlarının əbədiləşdirilməsi və xatirəsinin yad edilməsi istiqamətində də işlərin mütəmadi həyata keçirildiyini vurğulayıb.

Şəhid atası Babəli İbadov övlad itkisinin çətinliyindən danışaraq bildirib ki, ağrı və acılarına rayon rəhbərliyinin və el-obasının şərik olması, daim yanlarında olaraq qayğı və istəkləri ilə maraqlanması onların özlərini tənha hiss etməmələrinin əsas səbəblərindəndir. Şəhid atası dövlətimizin başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın hər zaman qayğı və diqqətini hiss etdiklərini, şəhid ailələrinə xüsusi ehtiram və hörmətlə yanaşdıqlarını bildirib və bütün bunlara görə hər birinə minnətdar olduğunu vurğulayıb.

Çıxışlardan sonra məktəblilərin ifasında qəhrəman Vətən övladlarına həsr olunan şerlər səsləndirilib. Daha sonra Taleh Qaraşov, icra aparatının məsul şəxsləri, şəhidlərin ailə üzvləri və kənd ictimaiyyəti Ürgə kənd qəbiristanlığında şəhidlərimizin məzarlarını ziyarət edib, qəbirləri üzərinə tər çiçəklər düzüb və ruhlarına dualar ediblər.

Qeyd edək ki, İbadlı Araz Babəli oğlu ölümündən sonra cənab Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "İgidliyə görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib. Şəhid İbadzadə Zabil Fikrət oğlu Ali Baş Komandanın müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Qubadlının azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medallarına laiq görülüb.

Bundan başqa, dünən Lerik rayonunda Vətən Müharibəsi şəhidi Ağacəfərli Ağamid Şirzaid oğlunun anım mərasimi keçirilib. Lerik rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov, YAP Lerik rayon təşkilatının sədr müavini Elnur Məmmədov, hüquq-mühafizə orqanları, idarə, müəssisə,təşkilat rəhbərləri, ictimaiyyət nümayəndələri, Ərazi Partiya Təşkilatının fəalları və şəhidin ailə üzvləri şəhidin məzarı önünə gül çiçək dəstələri düzərək, əziz xatirəsini ehtiramla yad ediblər. Qeyd edək ki, şəhid Ağacəfərli Ağamid 1995-ci il yanvarın 23-də Lerik şəhərində anadan olub. Orta təhsilini Azərbaycanın Milli Qəhrəmanı şəhid Valeh Müslümov adına Lerik şəhər 2 saylı tam orta məktəbində alıb. 2020-ci ilin 30 sentyabr tarixində könüllü olaraq Lerik Rayon Hərbi Komissarlığında qeydiyyatdan keçərək kəşfiyyatçı kimi müharibəyə yollanan qəhrəmanımız verilən döyüş tapşırıqlarını uğurla yerinə yetirməklə düşmənə sarsıdıcı zərbələr endirib. Füzulinin, Qubadlının işğaldan azad edilməsi istiqamətində gedən döyüşlərdə iştirak edib. 26 oktyabr 2020-ci il tarixində Qubadlı istiqamətində gedən döyüşdə qəhramancasına şəhid olmuşdur.Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının medallarla təltif edilməsi haqqında Prezident İlham Əliyevin imzaladığı Sərəncamlara əsasən Ağacəfərli Ağamid Şirzaid oğlu ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" və "İgidliyə görə" medalları ilə təltif edilib.

Allahdan bütün Şəhidlərimizə rəhmət diləyir, onları dərin ehtiramla anır, ruhları qarşısında baş əyirik!



# Yeni Azərbaycan Partiyası- 30

# YAP 30: İnkişaf və Zəfərlər partiyası!





## Qazax

Oktyabrın 26-da Qazax Gənclər Evində Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30-cu ildönümü münasibətilə tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları müasir müstəqil Azərbaycan dövlətinin banisi, Yeni Azərbaycan Partiyasının qurucusu ulu öndər Heydər Əliyevin abidəsini və Qazax Şəhidlər xiyabanını ziyarət ediblər.

Sonra Heydər Əliyev Mərkəzində Ulu Öndərin zəngin və mənalı ömür yolunu əks etdirən videoçarxa və fotoşəkillərinə baxış keçirilib. Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Yeni Azərbaycan Partiyasının fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

YAP Qazax rayon təşkilatının sədri Anar Nəbiyev məruzə ilə çıxış edərək ulu öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının 30 il ərzində keçdiyi şərəfli inkişaf yolundan ətraflı danışıb. Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident, partiyamızın Sədri, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının "Biz birlikdə güclüyük!" devizi altında möhtəşəm qələbələrə doğru inamla, qətiyyətlə addımladığı xüsusi vurğulanıb. Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov Yeni Azərbaycan Partiyasının tarixi zərurətdən yarandığını, xalqımıza çoxsaylı qələbələr bəxş etdiyini söyləyib.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov çıxış edərək ümummilli lider Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, bu gün Azərbaycanın artıq regionda və dünyada söz sahibinə çevrildiyini diqqətə çatdırıb.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə Yeni Azərbaycan Partiyasının ölkəmizdə aparıcı siyasi qüvvə olduğunu bildirib. 44 günlük Vətən müharibəsində qazanılan Qələbədən, şəhid ailələrinə, qazilərə göstərilən diqqət və qayğıdan bəhs olunub.

YAP Qazax rayon təşkilatının ilk sədri Abbas Göyüşov, Vətən müharibəsi qazisi, partiya fəalı Samir Çobanov, gənc partiya üzvü Aydan Əsgərova, partiya veteranı, şair Kazım Kazımlı çıxışlarında Yeni Azərbaycan Partiyasının bundan sonra da mühüm nailiyyətlərə imza atacağına əminliklərini ifadə ediblər. Sonda rayon təşkilatının həyatında fəal iştirak edən bir qrup partiya üzvlərinə fəxri fərman və partiya sıralarına yeni qəbul olunmuş üzvlərə üzvlük vəsiqəsi təqdim olunub.

## Qusar

Oktyabrın 26-da Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyi münasibətilə partiyanın Qusar rayon təşkilatı tərəfindən konfrans keçirilib. Öncə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin Qusar şəhərində ucaldılmış abidəsini və rayon Şəhidlər xiyabanında torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin məzarlarını ziyarət edib, əziz xatirələrinə ehtiramlarını bildiriblər. Tədbir Dövlət Himninin səsləndirilməsi, ulu öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Sonra Yeni Azərbaycan Partiyasının fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.





YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov "Yeni Azərbaycan Partiyası Qələbələr partiyasıdır" mövzusunda məruzə ilə çıxış edərək bildirib ki, 30 il müddətində hər zaman uğurlara imza atan YAP xalqın etimad etdiyi ünvana çevrilib. Cənubi Qafqazın ən avanqard siyasi təşkilatı olaraq YAP bu illər ərzində böyük yol qət edib. Müasir müstəqil Azərbaycanın qurucusu və memarı Heydər Əliyevin başladığı missiyanı Prezident İlham Əliyev müasir idarəçilik prinsiplərinə söykənərək davam etdirməkdədir.

Tədbirdə çıxış edən Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov vurğulayıb ki, Azərbaycanın son illərdə əldə etdiyi böyük nailiyyətlər Ulu Öndərin yaratdığı və bu gün Prezident İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bilavasitə bağlıdır. Partiya daim təkmilləşməyə və yeniliklərə açıq bir siyasi təşkilatdır. Vətən müharibəsində qazanılan qələbədə də partiyanın yürütdüyü ideologiyanın rolu danılmazdır.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Azər Badamov partiyanın ümummilli lider Heydər Əliyevin ideyalarına əsaslanaraq ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etdiyini, dövlətçiliyimizin möhkəmlənməsinə və Azərbaycanın dinamik inkişafına öz töhfəsini verdiyini söyləyib. YAP Veteranlar Şurasının üzvü Asif Cahangirov YAP-ın Azərbaycan dövlətçiliyinin, onun bu gününün və sabahının qarantı olduğunu bildirib. Tədbirdə, həmçinin partiya veteranı Əliyulla Ağalarov, Qarabağ Müharibəsi Əlilləri və Şəhid Ailələri İctimai Birliyinin Qusar filialının sədri Canəli Hörmətov, Azərbaycanın Milli Qəhrəmanı şəhid Çingiz Qurbanovun atası Salman Qurbanov, fəal gənc Lamiyə Abdullayeva çıxış ediblər. Sonda YAP sıralarına yeni qoşulmuş gənclərə üzvlük vəsiqələri təqdim olunub. Rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup partiya fəalı isə təşəkkürnamə ilə təltif edilib.

## Qaradağ

Oktyabrın 26-da Yeni Azərbaycan Partiyası (YAP) Qaradağ rayon təşkilatı tərəfindən partiyanın yaradılmasının 30-cu ildönümü münasibətilə tədbir keçirilib. Tədbirdən öncə Qaradağ rayonunda Heydər Əliyev Mərkəzinin binası önündə Ulu Öndərin abidəsi ziyarət olunub və gül dəstələri qoyularaq əziz xatirəsi ehtiramla yad edilib. Sonra Heydər Əliyev Mərkəzinin foyesində təşkil olunmuş kitab və rəsm sərgisinə baxış keçirilib.

Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra Yeni Azərbaycan Partiyasının 30 illik fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.

Tədbiri giriş sözü ilə açan YAP Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev Yeni Azərbaycan Partiyasının 30 il ərzində keçdiyi şərəfli yol haqqında danışıb. O, partiyanın tarixi zərurətdən yaranaraq Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması və dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində gördüyü işlərdən bəhs edib.

Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov partiyanın yaranmasını ulu öndər Heydər Əliyevin Azərbaycan xalqına bəxş etdiyi töhfələrdən biri kimi qiymətləndirib. Bu siyasətin layiqli davamçısı olan Azərbaycan Prezidenti, YAP-ın Sədri İlham Əliyevin rəhbərliyi altında dövlətimizin qüdrətinin və beynəlxalq nüfuzunun daha da





artacağını qeyd edib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Eldar İbrahimov ümummilli lider Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti nəticəsində yaradılan Yeni Azərbaycan Partiyasının 30 il müddətində zəngin və şərəfli bir inkişaf yolu keçdiyini qeyd edib. O, YAP-ın yarandığı gündən Azərbaycanın güclü və mütəşəkkil siyasi qüvvəsi olaraq xalqımızın milli maraqlarının ifadəçisi olduğunu bildirib.

Milli Məclisin deputatı Aydın Hüseynov YAP-ın təsis edildiyi dövrdə xalqımızın fəal və mübariz nümayəndələrinin qorxmadan bu partiyanın sıralarına qoşulduğunu qeyd edib. Milli Məclisin üzvü Səbinə Xasayeva YAP-ın yaranmasını xalqımızın mütəşəkkiliyinin və siyasi təfəkkürünün yüksək göstəricisi olduğunu qeyd edib. O, bu gün YAP-ın sıralarında ölkəmizin qabaqcıl gənclərinin toplandığını və yetkin bir siyasi qüvvə olduğunu bildirib.

"91-lərin" ən gənc üzvlərindən biri olmuş, hazırda Qaradağ Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Munis Bayramov 1992-ci ilin ağır günlərində bir qrup ziyalının Naxçıvan şəhərinə getməsindən və orada Heydər Əliyevlə görüşərək partiyanın yaranması ilə bağlı aparılan məsləhətləşmələr barədə tədbir iştirakçılarına məlumat verib.

Tədbirdə Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdir müavini Rəfael Gülməmmədov, Vətən Müharibəsinin şəhidi İsmayılzadə Səməndərin anası Fəridə İsmayılova, Vətən müharibəsi şəhidi Kəlbiyev Şaiqin atası Namik Kəlbiyev, Vətən müharibəsinin iştirakçısı, qazi Elxan Məmmədov, 180 saylı məktəbin direktoru Atakişi Cəfərov, Qaradağ rayon Lökbatan qəsəbəsi 288 saylı orta məktəbin direktoru Taleh Quliyev və İş adamı Əbülfət Qoçayev çıxış ediblər.

Sonra partiyanın yaranması, təşkilatlanması və Qaradağ rayonunun ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup şəxs fəxri fərmanla təltif edilib və partiya sıralarına yeni qəbul edilmiş şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

# 44 günlük müharibənin başlanmasından ötən bir ay



## 4 şəhər, 3 qəsəbə və 165 kənd, Ağdərə və Murovdağ istiqamətlərindəki yüksəkliklər işğalçılardan azad olundu



***"Bu gün Ermənistan silahlı qüvvələri döyüş əməliyyatları zonasından kənarda yerləşən Bərdə şəhərini raket atəşinə məruz qoyaraq humanitar atəşkəs rejiminin şərtlərini növbəti dəfə kobud şəkildə pozublar.***



“Smerç” qurğusundan buraxılmış kasetli raketlərlə atəş nəticəsində dörd mülki şəxs, o cümlədən yeddi yaşlı qız həlak olub. Dördü uşaq olmaqla on dörd nəfər ciddi xəsarət alıb”. Bu fikirlər 27 oktyabr 2020-ci il tarixində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi ”Instagram” hesabında edilən paylaşımda yer almışdı. Paylaşımda deyilirdi: ”Silahlı münaqişələr zamanı mülki şəxslərin qətlə yetirilməsi 1949-cu il Cenevrə Konvensiyalarının və bütövlükdə beynəlxalq humanitar hüquq normalarının ən kobud şəkildə pozulması deməkdir. Erməni təcavüzkarlarının əli ilə daha neçə günahsız insan həlak olmalıdır ki, dünya birliyi bu cinayətləri dinməzcə seyr etməyə son qoysun? Həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm, yaralananların tezliklə sağalmalarını arzulayıram. Biz öz torpağımızı təcavüzkarlardan azad edəcəyik və bu cinayətlərə son qoyacağıq. Uca Tanrı Vətənimizi qorusun!”

### DÖYÜŞDƏ UĞRADIĞI MƏĞLUBİYYƏTLƏ BARIŞMAYAN ERMƏNİLƏR DİNC İNSANLARI HƏDƏFƏ ALIRDILAR

Döyüşdə uğradığı məğlubiyyətlə barışmayan ermənilər dinc insanlara qarşı təcavüz edir, müxtəlif silahlardan atəş açırdılar. Müharibə zamanı dəfələrlə 1949-cu il Cenevrə Konvensiyalarının əsas norma və prinsipləri pozularaq müharibə zonasından uzaqda olan yaşayış məntəqələri də hücumlara məruz qaldı. Ermənistan Silahlı Qüvvələrinin bölmələri tərəfindən 2020-ci il oktyabrın 27-də Bərdə rayonunun Qarayusifli kəndinə, oktyabrın 28-də isə Bərdə şəhərinə olan raket hücumları nəticəsində 27 nəfər həlak oldu, 70 nəfərdən artıq insan yaralandı. 27 sentyabr 2020-ci il tarixdən Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini, habelə elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgəyə aidiyyəti olmayan şəhər və rayonlarımıza raket və ağır artilleriya zərbələri endirirdilər.

### ERMƏNİSTANIN İŞĞALÇILIQ, ANTİ-AZƏRBAYCAN SİYASƏTİNİ DAVAM ETDİRMƏSİNƏ BAXMAYARAQ, ONUN YAŞADIĞI QORXU HİSSİ DƏ DANILMAZ İDİ

”Bu gün biz özümüzün haqlı olmağımızı döyüş meydanında sübut edirik. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini həyata keçiririk və beynəlxalq hüququ bərpa edirik”. Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da İtaliyanın Rai-1 televiziya kanalına müsahibə verərkən bildirmişdi. 1994-cü ildə Azərbaycan və Ermənistan arasında atəşkəs elan olunsa da, ölkəmizin xoşməramlı səylərinə, rəsmi Yerevanı diplomatik vasitələrlə işğalçılıq siyasətindən çəkindirməyə yönələn addımlara baxmayaraq, münaqişə hələ də həll olunmamış qalırdı. 26 il atəşkəs rejimində yaşasaq da, Azərbaycan bu münaqişənin sülh yolu ilə həllinə nail ola bilmədi. Bu müddət ərzində, cəbhədə dəfələrlə atəşkəs rejimi pozulub. İşğalçı Ermənistan beynəlxalq hüququ kobudcasına tapdalayaraq, dünyanın mötəbər beynəlxalq təşkilatlarının qətnamələrinə belə əhəmiyyət verməyib. BMT-nin Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunmasını tələb edən dörd müvafiq qətnamə qəbul etsə də, beynəlxalq hüququn normalarını kobud şəkildə pozub. Bununla yanaşı, bir çox beynəlxalq təşkilatlar, dünya ölkələri Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etməsini pisləyiblər və işğalçılıq siyasətindən əl çəkməyə çağırıblar. AŞPA, ATƏT, İslam Konfransı Təşkilatı, NATO-nun Parlament Assambleyası səviyyəsində Ermənistanın işğalçılıq siyasətinə kəskin mənfi münasibət bildirilib. 44 günlük müharibə dövründə Ermənistanın işğalçılıq, anti-Azərbaycan siyasətini davam etdirməsinə baxmayaraq, onun yaşadığı qorxu hissi də danılmaz idi. Azərbaycanın düşməni torpaqlarımızdan çıxarmağa qadir olan ordusu cəbhədə öz gücünü göstərirdi. Müharibə getdiyi bir zamanda humanitar atəşkəs elan olunsa da, yenidən Ermənistan tərəfi buna məhəl qoymur, hətta mülki əhalini belə hədəf alırdı. Artıq üçüncü dəfə idi ki, humanitar atəşkəs elan olunur və hər birində erməni təcavüzkarları atəşkəs rejimini pozaraq, çirkin niyyətlərini ortaya qoymuş olurdular. Azərbaycan öz torpaqlarını işğaldan azad etmək məqsədi ilə müharibənin davam etdiridi. Hər gün torpaqlarımız geri alınırdı. Xalqımızın Ali Baş Komandan İlham Əliyev rəhbərliyi ilə Zəfərimizə inamı sonsuz idi. Həmin dövr ərizində Prezidentə ünvanlanan məktubların ardı-arası kəsilmirdi və bu məktubların hər birindən qələbə qoxusu gəlirdi. Vətəndaşlarımızdan biri belə yazırdı: ”Çox hörmətli möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız, müstəqil Azərbaycanın vətəndaşı olaraq daim Sizin ”Azərbaycan güclü dövlətdir, Azərbaycanın güclü ordusu var” şüarınıza inandıq. Yalnız bir çox halda səbirsizlik edirdik. Ancaq ”nəyi nə vaxt və necə etməyi də” Sizdən yaxşı bilənin olmamasına inanırdıq. Nə yaxşı ki, müstəqil Azərbaycanın qurucularından olan bizim nəsil də sayənizdə bu xoşbəxt günləri gördü. Biz dövlətimizlə, liderimizlə, əvəzolunmaz və möhtəşəm tarix yazan sərkərdəmizlə fəxr edirik. Ərazi bütövlüyümüzün, milli kimliyimizin, şərəfimiz və ləyaqətimizin bərpasını təşkil və təmin edən bir lider əbədi olaraq xalqımızın rəhbəri, lideri kimi tarixə düşdü. Tam əminəm ki, ”İlhamla irəli”nin ən məsul və yaradıcı dövrü indi başlayır. Sizi və xalqımızı bu nailiyyətlər münasibətilə təbrik edirəm. Cəbhə bölgəsinə könüllü olaraq yollanan oğlum daxil olmaqla Allah bütün əsgər və zabitlərimizi qorusun, bizə zəfərlər nəsib etsin! Qələbə bizimlədir, Qarabağ Azərbaycandır!”.

### DÖVLƏT BAŞÇISININ SİYASİ İRADƏSİ, QƏTİYYƏTİ, GÜCLÜ TƏZYİQLƏRƏ SİNƏ GƏRMƏSİ XALQIMIZA ZƏFƏRİ YAŞATDI

Əlbəttə ki, Müzəffər Ali Baş Komandan vətən müharibəsi başlanan zamandan xalqımızı sevindirir, işğaldan azad olunan ərzilərimizlə bağlı xəbərləri milyonlarla insana çatdırırdı. Tezliklə insanlar 30 illik həsrətinə torpaq həsrətinə son qoyulacaq günləri o ellərə dönməyi gözləyirdilər. Qalibiyyət yürüşü xalqımıza qısa bir zamanda dövlət başçısının siyasi iradəsi, qətiyyəti, güclü təzyiqlərə sinə gərməsi nəticəsində ZƏFƏRİ yaşatdı. Ermənistanın hərbi təxribatından sonra Azərbaycan Ordusunun başlatdığı əks-hücum əməliyyatı artıq bir ay idi ki, uğurla davam edirdi. ”Azərbaycan Ordusu böyük rəşadət göstərir, peşəkarlıq göstərir. Biz 1990-cı illərin əvvəllərində bir neçə il ərzində torpaqlarımızı itirmişik. Bu gün hələ bir ay keçməyib artıq Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan, Kəlbəcər, Qubadlı rayonlarının bir hissəsi işğalçılardan azad edilib. Yenə də deyirəm, hər gün cəbhədən yaxşı xəbərlər gəlir”. Bu fikirləri Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində keçirilən operativ müşavirədəki çıxışında səsləndirmişdi. Bir ay ərzində 4 şəhər, 3 qəsəbə və 165 kənd, Ağdərə və Murovdağ istiqamətlərindəki yüksəkliklər işğalçılardan təmizlənmişdi. Ordumuz hər gün, hər saat böyük tarixi nailiyyətlərə imza atırdı. Bu müddət ərzində bütün dünya Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sarsılmaz iradəsinin, xalqımızın birliyinin, Ordumuzun qüdrətinin şahidi oldu. Bir çox ərazilərimiz bir ay ərzində düşməndən geri alındı. Bu, əlbəttə ki, Ali Baş Komandanın siyasi iradəsindən, Azərbaycan Ordusunun qüdrətindən xəbər verirdi.

***Zümrüd BAYRAMOVA***

# Yeni Azərbaycan Partiyası- 30

# YAP 30 il ərzində şərəfli yol keçərək, ümumxalq partiyasına çevrilib!

*Yeni Azərbaycan Partiyasının yaradılmasının 30-cu ildönümünə həsr edilmiş tədbirlər keçirilib*



**Masallı**





Oktyabrın 26-da Yeni Azərbaycan Partiyası (YAP) Masallı rayon təşkilatı partiyanın yaradılmasının 30-cu ildönümünə həsr edilmiş tədbir keçirib. Öncə tədbir iştirakçıları xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edib, abidənin önünə tər güllər düzərək xatirəsinə ehtiramlarını bildiriblər. Masallı Qəhrəmanlar Parkında ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsi  ehtiramla yad edilib.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Ulu öndər Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyinə həsr edilmiş videoçarx nümayiş olunub. YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının 30 il ərzində şərəfli yol keçdiyini, ümumxalq partiyasına çevrildiyini diqqətə çatdırıb. S.Əliyev YAP-ın qələbələr partiyası kimi Azərbaycana tarixi nailiyyətlər qazandırdığını diqqətə çatdırıb.

Tədbirdə şəhər 1 saylı tam orta məktəb ərazi partiya təşkilatının sədri, şəhid Niyaməddin Sultanzadənin anası Mehriban Sultanova çıxış edərək qeyd edib ki, 30 illik yubileyə Yeni Azərbaycan Partiyası zəfər qazanmış bir ölkənin hakim partiyası olaraq daxil olur. O, Heydər Əliyev ideyalarının əbədiyaşar olduğunu, ölkəmizin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf etdiyini söyləyib.

YAP Masallı rayon təşkilatının veteran üzvü, rayon Ziyalılar Cəmiyyətinin sədri Qardaş Fətullayev çıxışında bildirib ki, ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdışı ilə Azərbaycana sabitlik və tərəqqi gətirdi. Bu gün Azərbaycan qüdrətli və qalib dövlət kimi dünya birliyində söz sahibinə çevrilib.

YAP Masallı rayon təşkilatının gənc fəalı İradə İmanbəyli çıxışında  bildirib ki, bu gün sürətlə inkişaf edən müstəqil dövlətimiz Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin uğurlu siyasəti ilə regionun lider dövlətinə çevrilib. Xalqımız öz Liderinə inanır, onu dəstəkləyir və onun ətrafında sıx birləşib. İ.İmanbəyli ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan ətraflı bəhs edib.

Tədbirdə YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Anar İsgəndərov çıxış edərək bildirib ki, ümummilli liderimiz Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti nəticəsində yaradılan YAP-ın 30 illik tarixi zəngin və şərəfli inkişaf yoludur. Azərbaycanın ən güclü və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası bu gün cənab İlham Əliyevin Sədrliyi ilə xalqımızı uğurlara, qələbələrə aparır.

Milli Məclisin deputatı Məşhur Məmmədov çıxışında Heydər Əliyev ideyalarının böyük zəfərlərə yol açdığını söyləyib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın tarixi nailiyyətlər qazandığını, möhtəşəm Qələbəyə imza atmaqla tarix yazdığını söyləyib. M.Məmmədov Yeni Azərbaycan Partiyasının bundan sonra da ardıcıl uğurlar qazanacağına əminliyini ifadə edib.

Masallı rayon İcra hakimiyyətinin başçısı Araz Əhmədov çıxışında Yeni Azərbaycan Partiyasının qələbələr partiyası olduğunu söyləyib. O bildirib ki, Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində əldə edilən qələbə ilə şanlı tarix yazdı. Qüdrətli dövlətimiz özünün ən böyük məramını gerçəkləşdirdi, ölkəmizin ərazi bütövlüyü təmin edildi.

Sonra partiyanın və rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup şəxs fəxri fərmanla təltif edilib. Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul edilmiş şəxslərə üzvlük vəsiqələri təqdim edilib.

**Ucar**




Oktyabrın 26-da Yeni Azərbaycan Partiyasının (YAP) Ucar rayon təşkilatı tərəfindən rayon Heydər Əliyev Mərkəzində partiyanın təsis edilməsinin 30 illiyi münasibəti ilə tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Ucar rayon Şəhidlər Xiyabanını və ümummilli lider Heydər Əliyevin Ucar rayonunun mərkəzində ucaldılmış abidəsini ziyarət ediblər.

Sonra Ucar rayon Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən eksponatlara baxış keçirilib.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva bildirib ki, noyabr ayının 21-də müstəqil dövlətimizin ictimai-siyasi həyatında müstəsna yer tutan Yeni Azərbaycan Partiyasının yaradılmasının 30-cu ildönümü tamam olur. Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yol barədə danışan Ş.Abdullayeva vurğulayıb ki, 1993-cü ilin iyununda Azərbaycan xalqı öz tarixi müdrikliyini sübut edən bir qərara imza ataraq Heydər Əliyevi hakimiyyətə dəvət etdi və bununla da müstəqil Azərbaycan dövlətinin tarixində yeni və uğurlu bir mərhələ başlandı. Yeni Azərbaycan Partiyası Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, milli dövlətçiliyimizin əsaslarının gücləndirilməsində, inkişafa, sabitliyə, tərəqqiyə xidmət edən milli məqsədlərin reallaşdırılmasında, yeni hədəflərin müəyyənləşdirilməsində və ən əsası, tarixi Zəfərimizin qazanılmasında misilsiz xidmətlər göstərib.



Çıxış edən Ucar Rayon İcra Hakimiyyətinin başçısı Mənsur Məmmədov deyib ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət, qəbul etdiyi dövlət proqramları, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrinin inkişafı ilə nəticələnmiş, Azərbaycan nəinki regionda, beynəlxalq səviyyədə qəbul edilən nüfuzlu, qüdrətli dövlətə çevrilib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Məmmədov çıxışında partiyanın yarandığı mürəkkəb tarixi-siyasi şəraitdən, keçdiyi çətin və şərəfli mübarizə yolundan, ulu öndər Heydər Əliyevin xalq və dövlət qarşısında göstərdiyi misilsiz xidmətlərindən danışıb. Vurğulayıb ki, Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olmasının, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla həyata keçirilməsi Heydər Əliyevin adı ilə bağlıdır.

Çıxış edən YAP İdarə Heyətinin üzvü Bayram Aslanov söyləyib ki, bu gün ümummilli lider Heydər Əliyevin yaratdığı tarixi ənənələr Yeni Azərbaycan Partiyası tərəfindən həyata keçirilməkdədir. Qeyd edib ki, dünyada baş verən qlobal dəyişikliklərin və maliyyə böhranının, qarşıdurmaların Azərbaycanın iqtisadi inkişafına, ictimai-siyasi sabitliyin qorunmasına, nəzərdə tutulan iri layihələrin reallaşdırılmasına ciddi təsir etməməsi həyata keçirilən strategiyanın məntiqi nəticəsidir. Azərbaycan gələcəyini özü müəyyən edən, tam şəkildə müstəqil siyasət yürüdən nadir ölkələrdəndir.

Tədbirdə Ucar rayon Ağsaqqallar Şurasının sədri Mirzalı Ağamalıyev, Qazyan kənd 1 nömrəli tam orta məktəbin müəllimi Yaqut Zeynalova, YAP Ucar rayon təşkilatının məsləhətçisi, şəhid Məmmədov Qadir Aslan oğlunun övladı Yusif Məmmədov çıxışlarında bildiriblər ki, Yeni Azərbaycan Partiyasının hər bir üzvünün qarşısında duran əsas vəzifə qazanılmış nailiyyətləri qorumaq və möhkəmləndirmək, Heydər Əliyev ideyalarına sədaqətlə xidmət etməkdən ibarətdir.

Sonda rayon təşkilatının həyatında fəal iştirak edən bir qrup partiya üzvlərinə fəxri fərman və partiya sıralarına yeni qəbul olunmuş üzvlərə üzvlük vəsiqəsi təqdim olundu.

*Ardı Səh. 11*

# Yeni Azərbaycan Partiyası- 30

# YAP 30 il ərzində şərəfli yol keçərək, ümumxalq partiyasına çevrilib!

## *Yeni Azərbaycan Partiyasının yaradılmasının 30-cu ildönümünə həsr edilmiş tədbirlər keçirilib*








Əvvəli-Səh-10

### Ağcabədi

Oktyabrın 26-da Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 30 illiyi münasibətilə partiyanın Ağcabədi rayon təşkilatı tərəfindən tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin abidəsini, sonra isə Qəhrəmanlar parkında şəhidlərin məzarlarını ziyarət ediblər. Tədbirdə Azərbaycanın Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov "Yeni Azərbaycan Partiyası qələbələr partiyasıdır" mövzusunda məruzə edib. O qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyası hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni uğurlar qazanır.

Tədbirdə çıxış edən Ağcabədi Rayon İcra Hakimiyyətinin Başçısı Rafil Hüseynov vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası böyük inkişaf yolu keçib: "YAP dünənin, bu günün, sabahın partiyası kimi davamlı nailiyyətlərə imza atmaqdadır."

Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Cavid Osmanov çıxış edərək qeyd edib ki, Yeni Azərbaycan Partiyası yarandığı gündən siyasi səhnədə dövlətçilik mövqeyindən çıxış edərək xalqın mənafeyini uca tutmuş, buna görə də xalqın rəğbətini qazanaraq ümumxalq partiyasına çevrilmişdir: "Azərbaycan xalqı bu gün ulu öndər Heydər Əliyevin qurucusu olduğu müstəqil Azərbaycan Respublikasını inkişaf etdirmək, yeni-yeni uğurlar qazanmaq istiqamətində partiyamızın Sədri, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə hərtərəfli dəstək verməkdədir".

YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin komitə sədri Tahir Rzayev çıxış edərək qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin yaratdığı və bu gün onun ideyaları əsasında fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası 30 il ərzində siyasi mübarizələrdə mətinləşmiş, aparıcı siyasi qüvvə kimi ölkəmizin ictimai-siyasi həyatında yüksək mövqe qazanmışdır.

Tədbirdə YAP veteranı Teymur Rəhimov, şəhid atası Sabir Sultanov, Vətən müharibəsi qazisi Cavid Allahverdiyev, Gənclər üçün Təhsil Mərkəzi Qarabağ Regional Ofisinin rəhbəri Radə Qafarova çıxış ediblər.

Tədbirin sonunda bir qrup Vətən müharibəsi veteranına medallar, YAP sıralarına yeni qəbul olunan bir qrup gəncə üzvlük vəsiqələri və rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya fəallarına fəxri fərmanlar təqdim edilib.

### Yasamal







Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30-cu ildönümü münasibətilə partiyanın Mərkəzi Aparatı tərəfindən hazırlanmış və İdarə Heyətinin qərarı ilə təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq YAP-ın Bakı şəhəri üzrə rayon təşkilatlarının gənc fəallarının Heydər Əliyev Mərkəzinə ekskursiyası davam edir. Oktyabrın 25-də YAP Yasamal rayon təşkilatının fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər. Partiya fəalları Ulu Öndərin zəngin və mənalı ömür yolunu əks etdirən eksponatlarla, əyani vəsaitlərlə tanış olublar.

## "Milli Məclisdə keçirilən ictimai dinləmə əsl plüralizm nümunəsi oldu"

**"Milli Məclisdə "Siyasi partiyalar haqqında" qanun layihəsi ilə ilk ictimai dinləmənin təşkil olunması hər şeydən öncə ictimai rəyə nə dərəcədə həssas yanaşıldığını nümayiş etdirdi. Belə ki, ictimai gözləntilərin nədən ibarət olduğunu müəyyənləşdirmək, qanunyaradıcılıq prosesində onların nəzərə alınması bir daha nümayiş etdirir ki, ölkəmizdə bütün fəaliyyətlər zamanı, qərarların qəbulu prosesində ictimai məmnunluq məsələsi diqqət mərkəzində olur". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu bildirib.**



Onun sözlərinə görə, Milli Məslisdə "Siyasi partiyalar haqqında" qanun layihəsi ilə bağlı ictimai dinləmənin təşkili bir daha bunun bariz nümunəsi kimi qiymətləndirilməlidir: "Xatırlatmaq yerinə düşərdi ki, 1995-ci ildə Konstitusiyanın qəbulu zamanı Ulu Öndər Heydər Əliyev cəmiyyətin bütün üzvlərinin baxışlarının nəzərə alınmasının vacibliyi prinsipini rəhbər tutmuşdur. Belə yanaşma, hər şeydən öncə cəmiyyətə hakimiyyət münasibətlərindəki konstruktivliyinin artmasını şərtləndirir və ictimai dialoq mühitini daha da yaxşılaşdırır. Oxşar yanaşmanı Milli Məclisdə keçirilən ictimai dinləmələr zamanı da aydın müşahidə etdik. Ümumiyyətlə, hesab edirəm ki, belə formatda ictimai dinləmənin təşkil olunması Azərbaycan ictimai-siyasi həyatında yeni siyasi mədəniyyət elementlərinin formalaşmasına xidmət edir. Belə ki, ictimai dinləmə özü-özlüyündə cəmiyyət üzvlərinin siyasi iştirakçılığını stimullaşdıran mühüm bir hadisədir. Azərbaycanda fəaliyyət göstərən siyasi partiyaların rəhbərlərinin, təmsilçilərinin iştirakı ilə "Siyasi partiyalar haqqında" qanun layihəsi ilə bağlı ictimai dinləmənin həm də daha təkmil qanun layihəsinin hazırlanması iradəsinin olduğunun göstəricisidir. Həqiqətən də, ictimai dinləmə zamanı siyasi partiya rəhbərləri qanun layihəsi ilə bağlı öz fikirlərini, təkliflərini səsləndirmələri üçün kifayət qədər münasib şərait yaradılmışdır. Ən vacib məqamlardan biri isə, həm də ondan ibarət idi ki, proses tam olaraq mediya təmsilçiləri tərəindən izlənilirdi. Yəni, bu dinləmə təkcə birbaşa iştirakçıların deyil, həm də bütün cəmiyyətin diqqəti mərkəzində idi. Qanun layihəsinin ayrı-ayrı müddəaları haqqında bütün cəmiyyət üzvlərinin rahat təsəvvürlər əldə etmək imkanı oldu. Bu baxımdan, Milli Məclisdə "Siyasi partiyalar haqqında" qanun layihəsi ilə bağlı baş tutan ictimai dinləmə əsl plüralizm və demokratiya nümunəsi oldu. Bu dinləmə həm də siyasi mədəniyyətin və siyasi iştirakçılığın təsirli drayveri rolunu oynamaq imkanlarını sərgiləmiş oldu. Siyasi partiyalarla parlament dialoqunun, tərəfdaşlığının kifayət qədər perspektivli əsasının qoyulduğunu da ictimai dinləmə göstərdi. Beləliklə, ictimai rəyin və mütərəqqi beynəlxalq təcrübənin nəzərə alınması ilə təkmil qanun layihələrinin hazırlanması istiqamətində hazırda formalaşmaqda olan yeni siyasi dialoq və münasibətlər sistemi təsirli rol oynayacaq".

***Abutel***

# Tyeri Valle: Emmanuel Makronun reallıq kabusu

***Fransız hüquq müdafiəçisi: "Mən əsla düşünmürəm ki, Ermənistan tərəfindən törədilmiş və Qarabağ münaqişəsinin ən qaranlıq səhifəsi olan Xocalı qətliamını sizin dediyiniz və iddia etdiyiniz kimi, "Ermənistanın tolerantlıq uğrunda mübarizəsi" adlandırmaq olar"***



Fransanın tanınmış hüquq müdafiəçisi Tyeri Vallenin ölkə prezidenti Emmanuel Makronun siyasətini kifayət qədər dolğun və reallığa uyğun şəkildə tənqid atəşinə tutması davam edir. Belə ki, adıçəkilən hüquq müdafiəçisinin nüfuzlu "Causeur" dərgisində Makronu riyakarlıqda ittiham etməsi özünü ən sərt şəkildə sərgiləyib. O, Makronun erməniləri az qala "dünyanın ən tolerant xalqı" kimi təqdim etməsinə layiqli cavabını verib. SİTAT: "Mən əsla düşünmürəm ki, Ermənistan tərəfindən törədilmiş və Qarabağ münaqişəsinin ən qaranlıq səhifəsi olan Xocalı qətliamını sizin dediyiniz və iddia etdiyiniz kimi "Ermənistanın tolerantlıq uğrunda mübarizəsi" adlandırmaq olar".



### Tyeri Valle: "Bütün bunları bilə-bilə danışmadığınız halda siz Fransanın əsas prinsiplərindən olan "Bərabərlik" şüarına etinasızlıq göstərirsiniz"

Tyeri Valle bu xüsusda əsl insanlıq xüsusiyyətlərini və gerçəkliyi əks etdirən bu faktı ilə Emmanuel Makronun dar düşüncəsini sözün əsl mənasında yerdən-yerə vurub, onun baxış bucağını heçə endirib. Belə ki, fransız hüquq müdafiəçisi ədalətli mülahizəsini davam etdirməklə yazıb: "Bütün bunları bilə-bilə danışmadığınız halda siz Fransanın əsas prinsiplərindən olan "Bərabərlik" şüarına etinasızlıq göstərirsiniz".

Makronun riyakar və rüsvayçı siyasi davranışı üzərində yetkin mükamilə aparan və kifayət qədər maraqlı faktları ortaya çıxaran hüquq müdafiəçisi Fransa prezidentinə tövsiyə edib ki, o erməni təcavüzünü, vəhşiliyini malalaması yerinə gerçək dəyərlərə sədaqətini qorumalı, Ermənistandakı dostlarını əvvəlki rejimlər tərəfindən törədilmiş Xocalı cinayətini tanımağa çağırmalıdır.

"Bu, Fransanın Cənubi Qafqaz regionunda həqiqətən də çox vacib olan barışıq prosesinə töhfə olardı", deyə müəllif qeyd edib.




### Hüquq müdafiəçisi: "Siz öz bəyanatınızla Cənubi Qafqazdakı zərif sülhü və erməni-azərbaycanlı münasibətlərinin normallaşması istiqamətində fəaliyyət göstərən Avropa İttifaqının rolunu təhlükə altında qoydunuz"

Tyeri Valle öz möhtəşəm məqaləsini tanınmış hüquq müdafiəçisi, "Xocalı: Barışıq naminə tanı" koalisiyasının üzvü, "Srebrenitsa Anaları" assosiasiyasının sədri Munirə Subaşiçin oktyabr ayının əvvəlində BMT-nin İnsan Haqları Şurasının Cenevrədə Xocalı soyqırımı ilə bağlı keçirilmiş konfransdakı sitatı ilə sona çatdırıb: "Etimadsız barışıq və həqiqətsiz etimad ola bilməz".

Xatırladaq ki, Tyeri Valle sözügedən məqaləsində Fransa prezidenti Emmanuel Makronun Qarabağla bağlı səsləndirdiyi ermənipərəts bəyanatını da hədəfə alıb. Onun Makrona ünvanladığı açıq məktubunu da məhz "Causeur" dərgisi dərc edib. "Siz öz bəyanatınızla Cənubi Qafqazdakı zərif sülhü və erməni-azərbaycanlı münasibətlərinin normallaşması istiqamətində fəaliyyət göstərən Avropa İttifaqının rolunu təhlükə altında qoydunuz", deyə o bildirib.

Valle onu da bildirib ki, tərəflərin Praqada qarşılıqlı olaraq bir-birlərinin suverenliklərini tanımaları imkanının yaranması fonunda Fransa prezidentinin "Qarabağ Ermənistanın qəlbidir" bəyanatını səsləndirməsi yalnız beynəlxalq hüquqa göstərilən hörmətsizlik deyil, həm də danışıqlar prosesindəki uğurlara xələl gətirir. Hüquq müdafiəçisinə görə bu, Fransa diplomatiyasının son illərdəki ən pis addımı kimi qiymətləndirilməlidir.

**Rövşən RƏSULOV**

# "Ermənistanın Aİ-yə müraciəti Rusiyada narazılıq yaradıb"



***"Ermənistan Azərbaycanla hərbi qarşıdurmaya getməyə iqtidarı olan dövlət deyil. 44 günlük müharibə dövlətlərin gerçək imkanları ilə bağlı məsələlərə kifayət qədər aydınlıq gətirdi". Bunu "Səs" qəzetinə açıqlamasında politoloq Elşən Manafov deyib.***

Onun sözlərinə görə, Azərbaycan ordusunun illik maliyyə məsrəfləri Ermənistan tərəfinin dövlət büdcəsindən ən azı üç dəfə çoxdur: "Digər tərəfdən Ermənistan təcavüz edən tərəf, Azərbaycan isə haqqı müdafiə edən tərəf olduğundan bu psixoloji faktor orduların da ovqatına, əhval-ruhiyyəsinə ciddi təsir edir. Azərbaycanın iqtisadi gücü Ermənistanla müqayisəyə gəlməyəcək dərəcədə yüksəkdir. Birinci Qarabağ müharibəsində Ermənistanın informasiya müharibəsində üstünlüyü artıq aradan qaldırılıb. Bölgənin lider dövləti də Azərbaycandır. Cənubi Qafqazın ÜDM-nun 75%-i Azərbaycanın payına düşür. Qərb dövlətlərinin Ermənistanın həyata keçirdiyi siyasətə havadarlıq etmələrinə, xristian təəssübkeşliyi nümayiş etdirmələrinə baxmayaraq beynəlxalq hüquq da bizimlədir. O ki, qaldı erməni tərəfinin qeyri-konstruktivliyinə, onun hərəkətləri daha çox xaricdəki erməni diasporası, lobbisi, Qərb dövlətlərinin bəlli dairələri tərəfindən istiqamətləndirilir. Aİ və Fransa Rusiyanı vasitəçilikdən uzaqlaşdırmağa çalışır, danışıqlarda vasitəçilik etməyə cəhd edirlər".

E.Manafov onu da bildirib ki, Aİ-nin Ermənistanın Azərbaycanla təmas xəttinə mülki şəxslərdən ibarət komissiya yerləşdirməsi Rusiyanı bölgədən uzaqlaşdırmaq məqsədlərindən irəli gəlir: "Bu şəraitdə Ermənistanın gerçək siyasətinin əsl mahiyyətini ifşa etmək, Aİ ilə münasibətləri qarşılıqlı etimad müstəvisi üzərində saxlamaq, Rusiyanın Azərbaycanla münasibətlərdə problemlər yaratmaq istəyindən kənarda saxlamaq məqsədi ilə Azərbaycan Aİ-nın bu təklifinə anlaşıqlı tərzdə yanaşımışdır. Ermənistanın Aİ-yə ünvanlanmış müraciətinin Rusiyada qıcıq və narazılıq yaratdığı bəllidir. Azərbaycan iqtidarı da bu dövlətlərin münasibətlərində çatın yaranması və dərinləşməsi üçün var gücü ilə çalışır. Ermənistan Azərbaycanla həmsərhəd bölgəyə ordu yerləşdirməklə əslində militarizmə meylli olmadığını göstərir, bu isə perspektivdə onun növbəti dəfə dəmir yumruqla üzbəüz qalacağını söyləməyə əsas verir. Məhz Aİ, Fransanın dəstəyinə arxalanaraq Ermənistan Moskva razılaşmasının şərtlərini yerinə yetirməkdən boyun qaçırır".

**Gülyana**

# 44 günün 2-si: BƏRDƏ



***2020**-ci ilin 44 günlük Vətən Müharibəsindən bizləri iki illik zaman kəsiyi ayırır. Lakin ötən il olduğu kimi, bu il də müharibənin başlandığı gündən sona çatdığı günədək hərgünkü xronikanı yenidən yaşayır, həmin günlərə qayıdır, hadisələrin fonunda 30 il sonra torpaqlarımızın azadlığı uğrunda mübarizəyə qalxdığımızı, böyük bir yol keçərək Böyük Zəfərə imza atdığımızı, ərazi bütövlüyümüzü bərpa etdiyimizi məmnuniyyət hissi ilə xatırlayırıq.*

44 gün... Tariximizin şanlı səhifələrinə qırmızı xətlə yazılan həmin günlər bizi Böyük Qələbəyə aparan günlər idi. Müharibənin ilk günündən-27 sentyabrdan böyük itkilər versək də, övladlarımızı itirsək də, onlar şəhidlik zirvəsinə yüksələrək oradan bizə qələbənin yaxında olacağını diqtə edirdilər. Bəli, Böyük Zəfərə hər gün bir addın yaxınlaşırdıq... Bunu görən düşmən isə əsl xislətini göstərməyə çalışırdı. Artıq bizim Suqovuşan, Zəngilan, Füzuli, Qubadlı, Xudafərin kimi qələbələrimiz nankor erməninin acımasız hirsinə səbəb olmuşdu. Bu səbəbdən də o, həm diqqəti yayındırmaq, həm də acığını çıxmaq üçün müharibə meydanından çox uzaqlara əl atır, dinc əhalini hədəfə almaqla əsl xislətini ortaya qoyurdu. Beləliklə 44 günün 2-si Bərdənin taleyinə yazıldı...

## Bərdə: iki gün mərmi yağışı...

Bərdə müharibənin 31 və 32-ci günləri ağır günlərini yaşadı. Bu qədim və gözəl diyarın dinc sakinləri mərmi yağışına məruz qaldılar. Şəhərləri düşmən paketinə tuş gəldi. Günahsız insanlar həyatlarını itirdilər, ağır yaralandılar. Bərdəlilər bunu gözləmirdilər desək, yanılmış olarıq. Çünki müharibənin geridə qalan 30 günündə ermənilər müharibə meydanından kənarda olan Tərtəri bombalamışdı, Gəncəyə paket atmışdı. Bu bölgələrimizdə də saysız sayda insanların həyatlarını itirmələrinə və yaralanmalarına, bu yerlərin çoxsaylı dağıntılara məruz qalmasına səbəb olmuşdular. Bütün bunları isə 44 günün hər anını, dəqiqəsini dördgözlə izləyən dünya görürdü, lakin səsini çıxaranlar səsi batanlardan dəfələrlə az idi. 20 Yanvar, Xocalı faciələri kimi, tanış susqunluq və durğunluq yenidən gündəmdə idi. Heç kim erməni yerində oturtmağa çalışmırdı və demirdi ki, sən müharibə bölgəsindən nə üçün uzaqlaşırsan, nə üçün dinc əhaliyə qarşı azğınlıq nümayiş etdirirsən? Axı Azərbaycan onların etdiyi hərəkətə bənzər bircə hərəkət belə etməmişdi və etməyəcəkdi.



Çünki bizim dövlətimizin başçısı, Ali Baş Komandanımız həmişə xalqa müraciətlərində, xarici mətbuata müsahibələrində bildirirdi ki, biz öz ərazimizdə, öz torpaqlarımız üçün döyüşürük.

Bəli, 27 sentyabr 2020-ci il tarixdən Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini, habelə elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini kobud şəkildə pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgəyə aidiyyəti olmayan şəhər və rayonlarımıza raket və ağır artilleriya zərbələri endirirdi. Oktyabrın 27 və 28-də isə iki gün ard-arda onlar Bərdəni hədəfə almışdı. Oktyabrın 27-də Bərdə rayonunun Qarayusifli kəndinə paket hucumu nəticəsində 5 nəfər dünyasını dəyişdi. Oktyabrın 28-də isə Bərdə şəhərinin dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin kompakt yerləşdiyi əraziyə hər birinin içərisində 72 ədəd 9N235 saylı, ümumilikdə 144 bombacıq olan "Smerç" tipli əməliyyat-taktiki təyinatlı 9M525 gəlpəli böyük dağıdıcı qüvvəyə malik ballistik "claster" tipli 2 ədəd raket zərbələrinin endirilməsi nəticəsində 5-i qadın olmaqla, 21 nəfər həlak olmuş, 8-i uşaq, 15-i qadın olmaqla, 70 şəxs isə müxtəlif dərəcəli bədən xəsarətləri almışdır.

Raket zərbələrinin təsirindən 30-dan artıq mülki infrastruktur obyektinə, dinc sakinlərə məxsus 20-dən artıq fərdi yaşayış evlərinə və 22 nəqliyyat vasitəsinə xüsusilə külli miqdarda ziyan dəymişdir.

## Gəncəlilər kimi, bərdəlilər də...

Düşmənin Bərdəni iki gün hədəf alması müharibə bölgəsində olan əsgərlərimizin diqqətini heç də ayıra bilmədi. Əksinə onların hər dəfə bu cür hərəkətləri ordumuzun əsgərinə yeni bir qisas hissi bəxş edir, bu hadisələrin cavabının bir-bir düşməndən alınmasına stimul yaradırdı. Beləliklə, oktyabrın 27 və 28-də baş verən Bərdə hadisələri düşmənin nankorluğunu, acgözlüyünü, yoxsul xislətini ortya qoyurdusa, azərbaycanlıların bu kimi hadisələrə böyük səbrlə, dəyanətlə yanaşdığını bəyan edirdi. Bütün dünya kənardan müharibənin hər iki tərəfini izləməklə onların qiymətini verir, eyni zamanda gücünü də görürdü.



Bərdə hadisələrindən əvvəl baş verən Gəncə hadisələri necə ki, gəncəliləri bir addım da olsa geri çəkilməsinə, onlarda mənəvi cəhətdən sınmaya təsir edə bilmədi, bərdəlilər də eynilə...

Onlar da gəncəlilər kimi mərd, məğrur dayandılar. Müharibə gedən ölkədə bu kimi hadisələrin baş verməsinin ola biləcəyini, bunu gözlədiklərini bildirdilər. Əzizlərinin heç bir günahı olmadan həyatlarını itirmələri onlar üçün acı olsa da, torpaqlarımızın azadlığının şirinliyini yaşamaq üçün bütün bunlara sinə gərməyi bacardılar. Dağıdılan ərazilərin dövlətimiz tərəfindən bərpa olunacağını əvvəlki illərdəki hadisələr zamanı görən insanlar bu dəfə də dövlətimizin gücünü hiss edərək ona güvəndilər. Güvənməkdə də yanılmadılar. Hələ müharibənin bitməsinə günlərin qalmasına baxmayaraq dağıdılan ərazilərimizdə bərpa işləri başlanmışdı.

Bütün xalq Zəfərə doğru yolçuluğa çıxmışdı. Bütün insanlar müzəffər Ali Baş Komandanın əmrini gözləyirdi. Uşaqlı-böyüklü, cavanlı-qocalı hər kəs döyüş meydanına yollanmağa, döyüşməyə, torpaqlarımızın azad olunmasına cəhd göstərirdi. Onları nə evlərinin, həyət-bacalarının, şəhər, kəndlərinin raketlə vurulması, nə də açılan sabahın sonunda gecələyəcəklərin evin olmaması qorxudurdu. Çünki bu xalqın səbri artıq kasasını aşmışdı. Erməni faşizminə son qoyulmalı idi. Torpaqlarımız anası Azərbaycana qaytarılmalı idi. Bu xalqın əsrlərdən gələn mentalitetitorpağın namus, şərəf məsələsi olmaq kimi dəyəri bərpa olunmalı idi. Bunun üçün bütün əzab-əziyyətə sinə gərməyi hər kəs qarşısına məqsəd qoymuşdu. Məqsədə çatmağa isə sayılı günlər qalırdı...

## Zəfərimiz bütün dərdlərimizin dərmanı oldu

Bərdə hadisələrindən sonra artıq Böyük Zəfərə əlimizi uzatmaqla çata bilərdik. Hər gün cəbhədən gələn qələbə xəbərləri Cəncədə, Bərdədə, Tərtərdə dağıdılan əraziləri gözlərimiz önündə qururdu, yaradırdı, əvvəlki vəziyyətinə gətirib çıxarırdı. Bu bir-birindən şad xəbərlər bölgələrimizdə dağıdılan evləri bərpa edirdi, pəncərələrindən işıq süzülürdü ətrafa. Onlar boş, viranə deyildilər. Sakinləri içəridə idi. Deyir-gülür, televizor qarşısında cəbhədən xəbərləri dinləyirdilər.

Heç bir qüvvə, heç bir hadisə Qarabağ uğrunda gedən müharibəyə, bu müharibənin qələbəsini anbaan gözləyən insanların əhvalruhiyyəsinə mənfi təsir göstərə bilməzdi. İnsanlar Qarabağa qayıtmağa, həmin torpaqlarda əzizlərinin qəbirlərini ziyarət etməyə, bağlı qapıları açmağa, çığırları, yolları itmiş evlərinə öz duyğuları, hissləri ilə çatmağa tələsirdilər.

30 il öncə bu torpaqlardan zorla qovulmuş didərgin insanların öz yurdlarına qayıdacaqlarını xəyal edirdilər. Didərginlikdə "torpaqtorpaq" deyib dünyasını dəyişən insanların ruhlarının şad olacağını düşünürdülər. 30 illik yükün bütün xalqın üzərindən götürüləcəyini, "işğal" kimi ağır sözün acısının bal kimi "azadlıq" sözü ilə əvəzləşəcəyini fikirləşirdilər. Ən əsası isə namus, şərəf məsələmizin həll olunacağını düşünürdülər.

Bütün bu istək və arzuların reallığa qovuşmasına isə sayılı günlər qalırdı. Düşmən hər gün hərbi texnikasını, canlı qüvvəsini itirməklə torpaqlarımızdan geri çəkilir, torpaqlarımız milli ordumuzun nəzarətinə keçirdi. Deməli, qələbəni bizə yaxınlaşdırırdı. Və nəhayət, gözlədiyimiz həmin günü görmək bizlərə nəsib oldu. Noyabrın 10-da bu şad xəbəri 44 gündə bütün qələbə xəbərləri kimi yenə də dövlətimizin başçısından aldıq. Zəfər xəbərini aldıq. Cəmi 44 gün çəkən müharibə bitdi. Düşmən qarşımızda ağ bayraqla təslim olduğunu bildirdi.

Qarabağ 30 ildən sonra azad oldu. Ərazi bütövlüyümüz bərpa olundu. Bütün bunlar üçün illərdən bəri böyük işlər həyata keçirən, bir gün torpqlarımızın azad olunacağını bütün çıxışlarında, xalqa müraciətlərində bəyan edən və verdiyi sözü bizlər üçün reallığa çevirən dövlətimizin başçısına minnətdarıq. Ata vəsiyyətini gerçəkləşdirən, Azərbaycanın ərazi bütövlüyünü təmin edən Ali Baş Komandanımıza minnətdarıq.

Canı, qanı, həyatı bahasına bu qələbəni bizə yaşadan yüzlərlə şəhidimizə, qazimizə minnətdarıq. Onlar Qarabağı bizə yenidən bəxş edənlərdir. Lakin özləri Qarabağdan doymamış bu dünyadan köçməli oldular.

Zəfər tariximiz qürur tariximizdir. Hər il bax beləcə vərəqləyəcəyimiz, təhlil edəcəyimiz, anıb xatırlayacağımız, gələcək nəsillərə ərmağan edəcəyimiz bir tarixdir. Allah bütün şəhidlərimizə rəhmət etsin. Nə yaxşı ki, var idilər. Nə yaxşı ki, analarımız belə oğullar doğubmuşlar. Atalarımız beləövladlar tərbiyə edibmişlər. Onlar bu xalqın milli sərvətidir. Namusu, şərəfidir...



***Mətanət Məmmədova***

# Erməni xislətində "dost", yaxud "ERMƏNİNİN DOSTU"

Təhlil

***İranın ermənipərəst mövqeyindən ruhlanan ermənilər son zamanlar ruslara bunu nümunə çəkirlər. Məhz İranın erməni sevgisi barədə Rusiyaya xatırlatma etməyi fürsət sayan ermənilər ruslara indi təhlükəsizliyi necə təmin etmək dərsi keçmək arzusuna düşüblər. Onilliklər, hətta əsrlər boyu haylara arxa, dayaq olan ruslara ermənilərin belə münasibət sərgiləməsi əslində, xəyanətkarlıqla yanaşı, İran dövlətinə yaltaqlanmaq, bu ölkədən imdad ummaqdır ki, bu da erməni xislətinin çılpaq nümunəsidir, hansı ki, bu "nümunəni" də iranlı diplomatlar nümayişkaranə şəkildə dost adlandırırlar.***

Uzun illər, onilliklər boyunca istər təhlükəsizlik məsələləri, istər mövcudluğunun təminatı, istərsə də hərhansı sahə olur-olsun, Rusiya Ermənistanı himayəsi altında saxlayıb və bunu ermənilər yaxşı bilir və etiraf da edirlər. İndi təhlükəsizliklərinin guya təminatı mənasında ruslara məhz iranlıları misal çəkmələri də sübut edir ki, ermənilər özlərinin müdafiə olunmasını Rusiyadan hər zaman umublar və elə bu müdafiəyə arxalanaraq Azərbacana qarşı çıxmağa cəsarət ediblər. Hər dəfə də bir bəşəri cinayət, yaxud da, ən azında təxribat törədəndə, ümid ediblər ki, ruslar Ermənistan dövlətinin və bu dövlətin silahlı dəstələrinin, terrorçularının, təxribatçılarının təhlükəsizliyini təmin edəcək, onlar da öz işğalçılıq siyasətini davam etdirəcəklər. Ermənilər zənn edirdilər ki, ruslar sonsuza qədər onları müdafiə edəcək və onlar da bundan istifadə edərək torpaqlarını genişləndirəcəklər. Hətta buna o qədər əmin olublar ki, xalq kimi özünü sırıyan kiçik bir köçəri tayfa regionda ikinci dövlət qurmaq barədə xam xəyallara da düşüb və Qarabağa olan iddialarında bütün dünya bunu gördü.

Təbii ki, Rusiyanın artıq Ermənistanı öz qanadları altına götürməsi, müdafiə etməsi, dəstəkləməsi mümkün deyil, hansı ki, erməniləri də qıcıqlandıran budur, amma regionda reallıqlar dəyişib və Azərbaycanın yaratdığı reallıqlar fonunda başqa cür ola da bilməz. Əvvəla, gec də olsa Rusiya ən dəyərli, güclü, qüdrətli tərəf olaraq Azərbaycanı gördü və əməkdaşlıqlarında da maraqlı olduğunu həm anladı, həm də qəbul etdi, çünki ölkəmizlə əlaqələr ruslar üçün əhəmiyyət kəsb etdiyi anlaşıldı. Digər tərəfdən Azərbaycan güclü, qüdrətli dövlətə çevrildiyini, öz haqlarını, hüquqlarını, ərazi bütövlüyünü, suverenliyini özü öz hesabına qorumaq iqtidarında, əzmində olduğunu isbatladı və 44 gün ərzində bunu nəinki ermənilər və ruslar, eləcə də bütün dünya gördü. Ən nəhayət, ruslar gördülər ki, ermənilər öz torpaqlarını genişləndirmək üçün onlardan istifadə edirlər və əvəzində də onlara verəcək heç nələri yoxdur. Deməli, sonsuza qədər onları müdafiə etməkdən, "erməninin dostu" olmaqdan ruslar vaz keçdilər və bunu başa düşən ermənilər indi yeni müdafiəçi, "dost" axtarışına çıxıblar. Tələlərinə də İranın keçdiyi qənaətindədirlər, amma yaxın zamanda bu ümidlərindən də əlləri üzüləcək. Ona görə ki, erməni xislətinin nədən ibarət olduğunu, Ermənistanın qonşu dövlətlərə yalnız istifadə etmək üçün yanaşdığını İran da tez bir zamanda anlayacaq, eyni ilə Rusiya kimi.

Hansısa dövlətin "kölgəsinə" sığınmaq, həmin dövlətdən istifadə etmək ermənilərin genetik kodlaşmasıdır desək belə yanılmarıq, çünki tarixə nəzər saldıqda buna, bu qənaətimizə tam əmin oluruq. Hətta tarixin müəyyən dövrlərində ermənilərin özlərinə arxa bildikləri, arxalandıqları dövlət zəiflədiyi zaman həmin dövlətə xəyanət edərək, onilliklər boyu yararlandıqları yaxşılıqları tapdalayaraq düşmən tərəfə keçdikləri də təkzibedilməz faktlardır. Osmanlının himayəsində bir müddət özlərinə sığınacaq tapan haylar həmin dövlət zəiflədiyi zaman Rusiyaya üz tutmadılarmı və türkləri rüslara satmadılarmı? Ötən əsrin ortalarında, 41-45-ci illər arası olan müharibənin gedişi zamanı faşistlərin güclü olduğunu zənn edib ermənilərin əksəriyyəti onlara tərəf keçmədilərmi? Qələbəni keçmiş Sovet İttifaqı qazanacağını başa düşdükləri zaman dərhal mövqelərini bir də dəyişmədilərmi və 70 il "kölgəsinə" sığındıqları rusları, Rusiyanı indi də Qərbə satmadılarmı? Belə bir xislətə sahib olan və xalq adlandırılan köçərilər İran dövlətini satmazmı? Əlbəttə ki, satar, çünki erməni xisləti bunu tələb edir və xain xislətdən nə desən gözləmək olar. Erməni xislətində olandan dost olmaz və Qərb, xüsusən ABŞ istənilən zaman İrana qarşı çıxsa, indi özlərini iranlılara "dost" və "qardaş" kimi göstərən ermənilər onları dərhal nəinki satacaqlar, düz amerikalıların ayaqları altına atacaqlar və bu qarşıdurma da istənilən an gözlənilir, çünki Amerika-İran münasibətləri heç də öz axarında deyil, hətta kəskin şəkildə pisdir. Deməli, İran özü erməni xislətindən çəkinməlidir, əks halda, iranlılar özləri kürəklərindən "dost" zərbəsi alacaqlar. Yəni, İran ilk növbədə erməni xislətini bilməli idi, amma hər bir halda bunu bilməyə və bununla qarşılaşıb acısını çəkməyə bir növ məhkumdur. Çünki İran özü Ermənistana bu şansı verməkdədir və həmin şansı verənlərin aqibətindən görünür ki, dərs ala bilməyib. Bir sözlə, erməni xislətinin nələrə qadir olması barədə İran kifayət qədər məlumatlı deyilmiş və bu xislətə sahib toplumu "dost" adlandırmaq ən böyük düşmən qazanmaqdır.

Rəsmi Tehran indi erməni sevgisini ortaya qoyaraq, sərhədlərin guya dəyişdirilməsinə imkan verməyəcəyini bəyan edir və ermənilər də bu dəfə bundan ruhlanmaq istəyirlər, eyni ilə Nensi Pelosinin dediklərindən "ruhlandıqları" kimi, hansıki sonra gördülər ki, Pelosi xalalarının dedikləri boş sözdən başqa bir şey deyilmiş. Əvvəla, istər İran olsun, istərsə də başqası, Azərbaycanın işinə qarışmaq səlahiyyətində deyil. Əgər ABŞ kimi bir ölkədən gələn Nensi qarının dediklərinin ardınca ermənilər heç nəyin dəyişmədiyini görərək, onun qarşısına gül-çiçəklə çıxıb ayaqları altına sərilmələrinə peşiman oldularsa,



deməli bu dəfə də həm ermənilər özləri peşiman olacaqlar, həm də iranlılar. Çünki ölkəmizin sərhəd məsələsinə qarışmaq səlahiyyəti nə İrana verilib, nə də bir başqa dövlətə və Ermənistandan fərqli olaraq, Azərbaycan öz müqəddəratını, öz yolunu özü təyin edən suveren, müstəqil dövlətdir. Bu suveren, müstəqil dövlətin erməni xislətinə sahib, yaxud ona tay olan "dosta" ehtiyacı yoxdur, Azərbaycan, dini bir, dili bir, adət-ənənəsi bir, tarixi kökləri eyni qardaş ölkə olan Türkiyə ilə müttəfiqlik, dostluq edir. Bunu da nəinki Ermənistan, heç İran da həzm edə bilmir, üstəlik Qərb də. Fakt və reallıq isə ondan ibarətdir ki, Azərbaycan-Türkiyə tandemi dünya üçün örnəyə çevrilib, çünki birliyinin gücü, qüdrəti göz önündədir, hansıki iğtişaşlar içərisində çaş-baş qalan, dünyanın hədəfində olan İranla, yaxud da rəzalət halında olan Ermənistanla müqaisəyə belə gəlməz.

"Dost dosta tən gərək, tən olmasa gen gərək", zərb məsəlində deyildiyi kimi, erməni xislətinə tən, tay olanlar bu xislət sahibləri ilə dost ola bilərlər. Olsunlar. Nə qədər istəyirlər o qədər olsunlar. Onsuz da belə dost ermənidən başqa kimsəyə lazım deyil. Özünü müsəlman, dövlətini İslam dövləti kimi dünyaya tanıtmaq istəyənlər müsəlman məscidlərində donuz saxlayanlara qardaş deyirlərsə, dost deyirlərsə, qoy elə "erməninin dostu" da olsunlar. Erməni xislətində "dost" qazanmaq, yaxud erməninin dostu olmaq "şərəfinə" yiyələnsinlər, eyni ilə, taylı tayını tapdığı kimi...

***İnam Hacıyev***

# Sergey Marqulis: "İranın hərbi təlimləri daxili gərginlikdən diqqəti yayındırmaq üçündür"



Rusiyalı ekspert, Rusiya Federasiyası Prezidenti yanında Rusiya Xalq Təsərrüfatı və Dövlət İdarəçilik Akademiyasının Sosial Elmlər İnstitutunun Beynəlxalq siyasət və xarici regionşünaslıq kafedrasının baş müəllimi Sergey Marqulis "Caliber" analitik mərkəzinə müsahibəsində regionumuzda yaranmış vəziyyətlə bağlı maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.

**- Necə düşünürsünüz, İran hansı məqsədlə Azərbaycanla sərhəddə gərginlik yaratmağa çalışır, ora İİKK-nın ağır hərbi texnikasını və qoşunlarını toplayır? Qonşu dövlətin indiki narazılığına nə səbəb ola bilər?**

- Məncə, bu vəziyyət iki əsas amildən qaynaqlanır- xarici və daxili. Əgər xarici amildən danışırıqsa, o zaman İran nəqliyyat kommunikasiyalarının və Zəngəzur dəhlizinin açılmasında qətiyyən maraqlı deyil, çünki İran rəhbərliyinin nöqteyi-nəzərindən bu, Türkiyə ilə Azərbaycan arasında yeni əlaqəni təmin edəcək və nəticədə, bu dəhliz İrandan Ermənistan ərazisindən keçən nəqliyyat marşrutlarını kəsə bilər. Hesab edirəm ki, Tehranın Ermənistan-Azərbaycan sərhədindəki son gərginlikdən və sərhədlərin Azərbaycanın xeyrinə dəyişdirilməsi ehtimalından narahat olması heç də təsadüfi deyil. Aydın məsələdir ki, İran türk dövlətləri dairəsində olmaqdan və bununla da Ermənistan ərazisindən keçən nəqliyyat marşrutunu itirməkdən qorxur.

İkinci amil- daxili faktora gəlincə, mən hesab edirəm ki, bu, daha aktualdır və əhalinin diqqətini son vaxtlar baş verən etiraz aksiyalarından yayındırmaqdan ibarətdir.

**- Sizcə, bu etiraz aksiyalarının əsas səbəbi nədir və hansı nəticələrə səbəb ola bilər?**

- İrandakı etirazları ilk növbədə sosial-iqtisadi amillər diktə edir, çünki bütövlükdə İranda vəziyyət firavanlıqdan uzaqdır. Üstəlik, bu, çox mühafizəkar islami həyat tərzi ilə daha da şiddətlənir. Bu, uzun illərdir ki, İran rəhbərliyi tərəfindən təbliğ olunur və bu, bu ölkədə hamını qane etməkdən uzaqdır. Məsələ burasındadır ki, bir vaxtlar, hətta İslam inqilabından əvvəl də İran dinə qarşı heç bir həddi aşmayan daha azad dövlət idi. İndi isə internetə və sosial şəbəkələrə aktiv çıxış olmadığından iranlı gənclərə digər müsəlman ölkələrindəki həyat tərzi haqqında daha az məlumat almaq imkanı verir. Hesab edirəm ki, etirazların səbəbləri də məhz bundadır.

**- İranın Ermənistana silah verməə ehtimalını görürsünüzmü?**

- Bəli, bu variant mənə kifayət qədər real görünür. Təsadüfi deyil ki, iranlı generallardan biri bir gün əvvəl demişdi ki, artıq 22 ölkə İranın pilotsuz uçuş aparatları və raketlərini almaqda maraqlıdır. Mən istisna etməzdim ki, İran silahlarının potensial idxalçıları sırasında Ermənistan tərəfi də ola bilər.

**- Bəs Ermənistanın təxribatçı siyasəti fonunda Cənubi Qafqaz regionunda indi və yaxın gələcəkdə sabitlik və təhlükəsizliyin səviyyəsini necə qiymətləndirirsiniz?**

- Cənubi Qafqazdakı ümumi vəziyyətə gəlincə, məncə, bu, təəssüf ki, kifayət qədər sabit deyil və potensial risklərlə doludur, bu da Ermənistan tərəfi ilə Qərb dövlətləri arasında əməkdaşlığın dərinləşməsi ilə bağlıdır. Bu kontekstdə Fransa lideri Makronun regiondakı vəziyyətlə bağlı son təxribatçı bəyanatını, həmçinin ABŞ-ın yüksək səviyyəli rəsmilərinin Ermənistana səfərlərini xatırlatmaq yerinə düşər. Aydındır ki, Qərb dövlətləri regionda vəziyyətin sarsıdılmasında və Ermənistan-Azərbaycan münaqişəsinin gərginləşməsində maraqlıdır, çünki bu, xüsusilə indiki şəraitdə Rusiya Federasiyası üçün ən əlverişsizdir. Ona görə də tamamilə mümkündür ki, Paşinyanın simasında Ermənistanın siyasətinə Qərbdən müəyyən təzyiqlər olsun. O, Rusiya ilə münasibətləri xeyli korlayıb, baxmayaraq ki, Moskva buna hələ rəsmi səviyyədə reaksiya verməyib. Bütün bu amilləri nəzərə alsaq, regionda hansısa eskalasiyanın olacağını istisna etməzdim.

**- Sizcə, Fransa hansı məqsədlə Azərbaycan əleyhinə genişmiqyaslı kampaniyaya başlayıb?**

- Makronun bu məsələdə mövqeyi iki amildən irəli gəlir. Bunlardan birincisi daxilidir və ondan ibarətdir ki, Fransa liderləri, bir qayda olaraq, güclü erməni diasporuna ciddi stavka edirlər. Müvafiq olaraq, Fransanın mövqeyi ənənəvi xarakter daşıyır və Qarabağ problemində Ermənistanı dəstəkləməyə yönəlib. İkinci məqam ondan ibarətdir ki, müasir Fransa siyasəti praktiki olaraq Amerikanın maraqları fonundadır ki, bu da indiki halda KTMT-də Rusiyanın birbaşa hərbi müttəfiqi olan Ermənistanın Rusiya münasibətlərini pisləşdirməyə yönəlib. Buna görə də Fransa tərəfi Moskvanın Ermənistan-Azərbaycan münaqişəsində Bakının mövqeyini tutması tezisini fəal şəkildə təbliğ etməyə çalışır. Əslində, Rusiya əsasən vasitəçi kimi çıxış edir, lakin Paşinyanın Qərbə davamlı baxışlarını nəzərə alsaq, çox güman ki, Paris Bakı ilə münasibətlərdə ermənipərəst mövqedən çıxış edəcək və anti-Azərbaycan ritorikasını davam etdirəcək.

***Tərcümə - Elçin Bayramlı***



# 2023: Qlobal böhran şəraitində makroiqtisadi göstəricilərimiz nə vəd edir?

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" çərçivəsində hazırlanıb.*

## *Gələn il üçün sosial yönümlü büdcə xərclərində böyük artım var*



ANALİZ

Xəbər verdiyimiz kimi, ”Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında” qanun layihəsi oktyabrın 24-də Milli Məclisə daxil olub. Gələn il büdcəsində bütün göstəricilər üzrə ciddi artım var. Azərbaycan tarixində büdcə gəlirləri və xərcləri gələn ilin sosial-iqtisadi mənzərəsini təsəvvür etməyə imkan verir. Əvvəlcə rəqəmlər üzərində bunu nəzərdən keçirməyə çalışaq. Layihədə 2023-cü il üçün dövlət büdcəsinin gəlirləri 30,7 milyard manat proqnozlaşdırılır ki, bu da ölkə tarixinin ən yüksək göstəricisi olmaqla, 2022-ci illə müqayisədə 5,2 faiz, 2021-ci illə müqayisədə isə 16,4 faiz çoxdur.

Ölkəmizdə həyata keçirilən uğurlu iqtisadi siyasət nəticəsində dövlət büdcəsinin qeyri-neft gəlirləri davamlı olaraq artır. 2023-cü ildə dövlət büdcəsinin qeyri-neft gəlirləri 14,4 milyard proqnozlaşdırılıb ki, bu da 2022-ci illə müqayisədə 5,6 faiz, 2021-ci illə müqayisədə isə 12,2 faiz çoxdur.

Bununla yanaşı, dövlət büdcəsinin qeyri-neft gəlirlərinin artımı Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin azalmasına imkan yaradır. 2023-cü ildə Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert 11,3 milyard manat nəzərdə tutulur və bu da 2022-ci illə müqayisədə 237,5 milyon manat azdır. Əmtəə bazarlarında neft qiymətlərinin dəyişkənliyi nəzərə alınmaqla, daha ehtiyatlı yanaşma əsasında 2023-cü ildə dövlət büdcəsi hazırlanan zaman neftin bir barelinin qiyməti 50 ABŞ dollarına bərabər götürülmüşdür.

Layihədə 2023-cü ildə dövlət büdcəsinin xərcləri 33,3 milyard manat proqnozlaşdırılır ki, bu da 2022-ci illə müqayisədə 1 milyard manat, 2021-ci illə müqayisədə isə 5,9 milyard manat çoxdur. 2023-cü ilin dövlət büdcəsinin gəlirləri kimi xərcləri də ölkə tarixinin ən yüksək göstəricisidir.

Qeyd etmək lazımdır ki, işğaldan azad edilmiş ərazilərin bərpası və böyük qayıdış planının təmin etdirilməsi 2023-cü ilin dövlət büdcəsinin layihəsində əsas istiqamətlərdəndir. Bu istiqamətdə dövlət büdcəsindən vəsait ayrılmasında ilbəil artım müşahidə olunur. 2023-cü ildə işğaldan azad edilmiş ərazilərin bərpası üçün 3 milyard manat vəsait nəzərdə tutulur. Bu da 2022-ci illə müqayisədə 12,4 faiz, 2021-ci illə müqayisədə isə 37,7 faiz çoxdur.

Bundan başqa, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi və milli təhlükəsizliyinin təmin edilməsi dövlət büdcəsinin əsas prioritet xərci olaraq qalmaqdadır. 2023-cü ilin dövlət büdcəsində bu məqsədlə 5,3 milyard vəsait nəzərdə tutulmuşdur ki, bu da 2021-ci illə müqayisədə 17,1 faiz çoxdur. Əvvəlki illərdə olduğu kimi, 2023-cü ilin dövlət büdcəsi də sosialyönlü olaraq proqnozlaşdırılmışdır. 2023-cü ildə bu məqsədlə 15,2 milyard manat vəsait nəzərdə tutulur ki, bu da 2022-ci illə müqayisədə 1,3 milyard manat və ya 9,3 faiz çoxdur.



Növbəti ildə ehtiyac meyarının həddi 2022-ci illə müqayisədə 23 faiz artaraq 246 manat nəzərdə tutulur. Bununla da 2023-cü ildə ölkə üzrə yaşayış minimumu və ehtiyac meyarının hədləri bərabərləşmiş olacaqdır.

2023-cü ilin dövlət büdcəsində 4,4 milyard manat təhsil xərcləri nəzərdə tutulur ki, bu da 2022-ci illə müqayisədə 536,5 milyon manat və ya 13,8 faiz, 2021-ci ilin icra göstəriciləri ilə müqayisədə isə 1,3 milyard manat və ya 42,4 faiz çoxdur. Gələn il dövlət sifarişilə ali təhsil alanların, həmçinin təqaüd yerlərinin sayının artırılması və əhalinin aztəminatlı təbəqəsinin ali təhsilə əlçatanlığının daha da artırılması və ali təhsilin əhatə dairəsinin genişləndirilməsi məqsədilə daha çox tələbə kreditinin verilməsi, habelə təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi üzrə artan tələbatın qarşılanması təhsil xərclərinin artımında əsas istiqamətlərdəndir.

Ölkənin ərzaq təhlükəsizliyinin etibarlı və dayanıqlı təminatı üçün büdcə resurslarının artırılması, aqrar sektorun stimullaşdırılması, kənd təsərrüfatının aparıcı sahələrinin inkişaf etdirilməsi üçün 2023-cü ilin dövlət büdcəsində 1,2 milyard manat məbləğində vəsait nəzərdə tutulmuşdur. Bu da 2022-ci illə müqayisədə 20,5 faiz, 2021-ci illə müqayisədə isə 32 faiz çoxdur.

Layihədə işğaldan azad olunmuş ərazilərdən yeni torpaqların əkin dövriyyəsinə cəlb edilməsi, dünya miqyasında əhalinin gündəlik tələbatına daxil olan bir sıra ərzaq və qeyri-ərzaq məhsullarının qiymətinin artım dinamikası da nəzərə alınmaqla, Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyi tədbirləri üçün 625,2 milyon manat vəsait proqnozlaşdırılmışdır ki, bu da 2022-ci illə müqayisədə 38,6 faiz çoxdur.

Göründüyü kimi, ölkəmizin iqtisadi gəlirləri artdıqca sosial müdafiə və təhlükəsizlik xərcləri də artır. Təhsil xərclərinin 42,4 faiz artaraq 4,4 milyard manata çatdırılması təhsil sahəsində ciddi inkişafa imkan verəcək həddədir.

Daha bir sevindirici məqam qeyri-neft gəlirlərinin 12,2 faiz, başqa sözlə 14,4 milyard manat artmasıdır. Nəticədə Dövlət Neft Fondundan büdcəyə transfertlər də 237,5 milyon manat azalır. Bu, həm də ölkə iqtisadiyyatının neftdən asılılığının xeyli dərəcə azalması deməkdir.

Ümumiyyətlə, büdcə gəlirlərinin yuvarlaq desək 5 milyard, xərclərinin isə 6 milyard manat artması çox böyük nailiyyətdir. Bu, respublika tarixində ən böyük artım göstəricisidir.

2023-cü ildə işğaldan azad edilmiş ərazilərin bərpasına ayrılan vəsaitin 37,7 faiz artraraq 3 milyard manata çatdırılması, həmin ərazilərdə həyatın daha sürətlə bərpa edilməsinə imkan yaradacaq.

Ölkənin müdafiə xərclərinin 17,1 faiz artırılaraq 5,3 milyard manata çatdırılması da vacib addımlardandır. Güclü ordu dövlətin və xalqın təhlükəsizliyinin qarantıdır. Hərbçilərin sosial müdafiəsinin gücləndirilməsi isə çox vacibdir.

Ən vacib məqamlardan biri də aqrar sektorun inkişafı ayrılan xərclərin 32 faiz artırılaraq 1,2 milyard manata çatdırılmasıdır. Qlobal ərzaq böhranı və qida qıtlığı şəraitində bu sahəyə diqqətin artırılması son dərəcə vacibdir. Əhalinin ərzaq təminatının yaxşılaşdırılmasına, bahalaşmanın qarşısının alınmasına, yerli istehsalın artırılmasına çalışılması həyati dərəcə vacib məsələdir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün xərclərin də 38,6 faiz artırılaraq 625 milyon manata çatdırılması bu sahədə vəziyyəti daha da yaxşılaşdıracaq.

2023-cü ildə sosial sahəyə ayrılan vəsaitlərin 1,3 milyard manat və ya 9,3 faiz artırılaraq 15,2 milyard manata çatdırılması nəzərdə tutulur. Dövlət büdcəsinin az qala yarısı sosial xərclərə ayrılıb ki, bu da sosial büdcə deməkdir.

Ümumiyyətlə, 2023-cü ilin dövlət büdcəsi gələn il üçün sosial-iqtsadi inkişafın daha da sürətlənəcəyi və qlobal iqtisadi böhan şəraitində Azərbaycanın öz inkişafını daha da artırdığını göstərən əsas faktdır. Üstəlik, nəzərə alsaq ki, neftin qiyməti büdcədə həddən artıq pessimist proqnozla 50 dollar götürülüb və hazırda neftin qiynətinin bundan təxminən 2 dəfə artıq olması o deməkdir ki, Neft Fondunun gəlirləri də xeyli artacaq.

Buraya təbii qazın qiymətinin həddən artıq bahalaşması və qarşıdan gəln qışda daha da bahalaşacağı proqnozlarına bu barədə onu demək mümkündür ki, ölkəmizin qaz ixracından əldə edilən gəlirləri daha çox artracaq. Bu il ərzində bu gəlirlər 4 dəfə artıb. Gələn isə daha çox artra bilər.

Pandemiyanın başa çatması ilə turizm sektorunun yenidən bərpa olunacağı da iqtisadi aktivliyə öz təsirini göstərəcək. Azad olunmuş ərazilərdə əkin-biçin və heyvandarlıqdan əldə olunan gəlirlər də ölkədə məhsul istehsalını artıracaq.

Ümumiyyətlə, beynəlxalq maliyyə institutları 2023-cü ildə ÜDM-in nominal dəyərinin 100 milyard manata çatacağını proqnoz edirlər. Bu isə tariximizdə ən böyük ümumi daxili məhsul deməkdir. Belə bir iqtiaadi qüdrətə malik olmaq həm ölkəmizin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırır, həm siyasi nüfuzunu artırır, həm də müdafiə və təhlükəsizliyini təmin edir.

Hazırda ölkənin stratei rezervləri 56 milyard dollar dəyərindədir. Gələn il üçün bu rəqəm 60 milyarda çata bilər. Bu isə həm iqtisadi təhlükəzilik yastığı, həm də gələcək üçün yığılmış çox böyük bir ehtiyat fond deməkdir.

Azərbaycanda həyata keçirilən iqtisadi islahatların nəticəsi artıq özünü tam şəkildə göstərir. Bu vəziyyət sosial rifahın da yüksəlməsinə şərait yaradır. 2023-cü ilin dövlət büdcəsi bu istiqamətdə proqramların gücləndiriməsi üçün hər cür imkanlara malikdir.

***Elçin Bayramlı***

SON SƏHİFƏ
Səs
27 oktyabr
2022-ci il

# “Tik-Tok”dan istifadə edənləri hansı cəza gözləyir?




Bildiyimiz kimi, ölkədə ”TikTok” istifadəsi müvəqqəti qadağan edilib. Lakin müəyyən kütlə var ki, ”VPN”lə ”TikTok”dan istifadə edir. Onlar hər hansı şəkildə cəzalandırılırmı? Yaxud onlarla bağlı hər hansı bir tədbir görülməlidirmi? Mövzu ilə bağlı SİA-nın sorğusuna cavab olaraq RİNN-in Rəqəmsallaşdırma Sahəsində İctimaiyyətlə Əlaqələr üzrə meneceri Vüsalə Səid Əyyubqızı məlumat verib.

Onun sözlərinə görə, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti bildirir ki, ”VPN” tətbiqlərindən istifadə, kiber mühitdə vətəndaşların məlumatlarının təhlükəsizliyi üçün ciddi riskdir: ”Belə ki, ”VPN” xidmətini təqdim edən tərəf istifadəçilərin məlumatlarına nəzarətlə yanaşı onları ələ keçirə bilər. Elektron Təhlükəsizlik Xidməti vətəndaşlara ”VPN” tətbiqlərindən istifadə etməməyi tövsiyə edir”.

*Ayşən Vəli*

# Erkən nikahların baş tutmasında günahkar kimlərdir?

***Hər gün 41 min qız 18 yaşına çatmamış ərə verilir. Bu, ildə 15 milyon qız deməkdir. Erkən nikahlar gəlinlərə, uşaqlara, yeniyetmələrə və bütün dünya ölkələri ailələrinə ciddi təsir göstərir. Bu təcrübəyə son qoymaq Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərindən biridir.***

Dünya Bankı Qrupunun təhlili göstərir ki, erkən nikahın iqtisadi xərcləri yüksəkdir. Erkən nikahlara və erkən uşaq dünyaya gətirməyə son qoyulması məhsuldarlıq əmsalını azalda bilər, nəticədə ölkələrdə əhalinin artımını təxminən azaltmaq olur. Erkən yaşda uşaq dünyaya gətirən anaların övladları üçün beş yaşına çatmamış ölüm və ya böyümə geriliyi riski yaranır.

BMT ekspertlərinin fikrincə, bir qız ərə getməyə məcbur edilməməlidir. Onların fikrincə, yetkinlik yaşına çatmayanların nikahı uşaqların hüquqlarını pozur və köləliyin bir forması kimi tanınmalıdır. Zorla ərə verilən qızların təhsil, sağlamlıq, fiziki və psixoloji zorakılıqdan azad olmaq hüquqları ciddi şəkildə pozulur deyə beynəlxalq hüquq müdafiəçiləri qeyd edir. Hindistanda erkən nikahlar geniş yayılıb. Əfqanıstanda bir qayda olaraq, on yaşlı qızlar qırx yaşlı bəylərlə nikaha girir. Bu ən çox Cənubi Asiya və Afrikada ölkələrində baş verir. Bəzilərinin yaşı 16, digərlərinin 12, çoxunun isə daha az yaşı olanlar erkən nikaha cəlb olunur.

Bir sıra Avropa ölkələrində də erkən yaşda nikahlara rast gəlmək olur. Məsələn, son illər Böyük Britaniyada 2,6 %, Avstraliyada 1,8 %, İsveçrədə 1,6 %, Fransada 0,8 %, Danimarkada 0,6 % erkən nikah faktı baş verib. Qonşu Türkiyədə də erkən nikah aktual problem olaraq qalmaqdadır. Statistikaya görə, Türkiyədə 18 yaşa qədər olan 180 mindən çox qız nikaha girir.

Azərbaycanda bu kimi halların baş verməsini aradan qaldırmaq üçün ölkədə ailə institutunun möhkəmləndirilməsi və inkişafı, gənc ailələrin hüquqi və sosial-iqtisadi mənafelərinin qorunması istiqamətində genişmiqyaslı işlər həyata keçirilir. Hər bir ailə üçün möhkəm zəmin yaradılmasına, cəmiyyətdə bütün uşaqların sağlam doğulmasına, onların sonrakı normal həyat tərzinə zəmanət verən şəraitin yaradılmasına diqqət yetirilir.

Ölkə Prezidentinin qeyd etdiyi kimi, ailə həyatın davamının, nəsillərin davamlılığının təminatçısı, xalqın müqəddəs adət-ənənələrini inkişaf etdirən, gələcək nəsillərin kamilləşməsinə bilavasitə təsir edən tərbiyə ocağıdır. Əsas Qanunumuzun 63-cü maddəsində göstərilir ki, ”Ailə cəmiyyətin əsas vahididir, cəmiyyət və dövlət tərəfindən müdafiə olunmaq hüququna malikdir. Nikah tərəflərin azad razılığı və bərabərliyi əsasında qurulur. Bu prinsip əsasında ölkəmizdə ailənin hərtərəfli dəstəklənməsi, ona maddi və mənəvi köməklik göstərilməsi istiqamətində tədbirlər həyata keçirilir.

Mütəxəssislərin fikrincə, nikaha daxil olan gənc oğlan və qızların yaşı ailənin möhkəmliyinə təsir edən əsas amillərdəndir. Təəssüflər olsun ki, bəzi valideynlər övladlarının gələcək taleyini, xoşbəxtliyini düşünmədən azyaşlı qızlarını ərə vermək və ya oğullarını evləndirmək fikrindədirlər. Nəticədə belə olur ki, qızlar on altı yaşında, bəzən daha tez ərə verilir. Və bu, əksər hallarda gələcək ananın sağlamlığına, ailənin möhkəmliyinə, gələcək uşaqların sağlamlığına mənfi təsir göstərir. Son vaxtlar ölkəmizdə xüsusən də bölgələrdə erkən nikah hadisələrinə tez-tez rast gəlirik.




Ümumiyyətlə, dünyanın bir çox, o cümlədən 150-dən çox ölkəsində erkən nikahlarla bağlı qadağalar olmasına baxmayaraq, bir sıra mentalitet amilləri əsasında qoyulan qanunlar pozulur, erkən nikahlara yol verilir. Qeyd edək ki, bizim ölkəmizdə də ənənələrə söykənərək, erkən nikahlara gedənlər var və sayları getdikcə artır”. Ötən il Bakıda 11 erkən nikah qeydə alınıb. Bu nikahlardan 6-sı Qaradağ, 3-ü Xəzər, 1-i Nərimanov, 1-i isə Nəsimi rayonunda olub.

Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət komitəsinin mətbuat katibi Teymur Mərdanoğlu bu haqda SİA-ya açıqlama verib.

”Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 10-cu maddəsinə əsasən Azərbaycan Respublikasında nikah yaşı 18 yaş qeyd olunmuşdur. Üzürlü səbəblər olduqda nikah yaşı 1 ildən çox olmayaraq azaldıla bilir. Erkən nikah hallarının baş verməsi bir çox hallarda ailələrdə münaqişələrə, boşanmalara və nəticədə sosial cəhətdən həssas qrupların sayının artmasına səbəb olur. Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yeniyetmə və gənclərin erkən nikah və qohumlar arasında nikahın mənfi nəticələrinə dair məlumatlandırma səviyyəsinin artırılmasına xüsusi önəm verir. Mütəmadi olaraq bu sahədə maarifləndirmə tədbirləri həyata keçirilir. Qadını nikaha daxil olmağa məcbur etmək 2 min manatdan 3 min manatadək miqdarında cərimə və ya 2 ilədək müddətində azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Bu Azərbaycan Respublikasının Cinayət Məcəlləsində qeyd olunur. Eyni əməllər nikah yaşına çatmayan şəxsə qarşı törədildikdə 3 min manatdan 4 min manatadək miqdarında cərimə və ya 4 ilədək müddətində azadlıqdan məhrumetmə cəzası tətbiq edilir. Bu kimi halların baş verməsinə birbaşa günahkar valideynlərdir. Biz ona görə dövlət komitəsi olaraq ailə və uşaq problemləri üzrə mütəmadi maarifləndirmə tədbirləri həyata keçiririk ki, övladlarımıza öncə təhsil verək, daha sonra onların nikah məsələləri haqqında düşünək. Erkən yaşda nikaha məcburetmə qeyd etdiyimiz kimi birbaşa cinayətdir.

Mətbuat katibi onu da qeyd edib ki, komitə yalnız erkən nikahla bağlı məlumatlandırmaq, tərbiyə və tövsiyə xarakterli görüşlər keçirmək, həmçinin problemin daha çox yayıldığı bölgələrdə seminarlar keçirmək hüququna malikdir. ”Azərbaycanda erkən nikahlarla birbaşa olaraq icra hakimiyyətləri məşğul olur. İcra hakimiyyətinin nəzdində ”Yetkinlik yaşına çatmayanlar üzrə komissiya” var. Erkən nikahla bağlı müraciət gəldiyi zaman komissiya problemi yerindəcə araşdırıb bununla bağlı hüquq mühafizə orqanlarına məlumat verməlidir.

*Havar Şəfiyeva*

# Bakıda mağazadan 4290 manat oğurlanıb



***Bakıda M.Ə.Rəsulzadə qəsəbəsindəki bir mağazadan 4290 manat və müşahidə kamerasının yaddaş qurğusu oğurlanıb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyindən məlumat verilib. Qeyd olunub ki, hadisə ilə bağlı Binəqədi Rayon Polis İdarəsinin 7-ci Polis Bölməsinə müraciət daxil olub.***

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Naxçıvan şəhər sakini Taleh Budaqov müəyyən olunaraq saxlanılıb. Faktla bağlı araşdırma aparılır.

# Zəncəfilin bilmədiyiniz dəhşətli zərəri- Həkim açıqladı



**Zəncəfil payız, qış-da insanların ən çox aldığı vasitədir. O, antioksidant, B, C vitaminləri ilə zəngindir. Zəncəfil virus və bakteriyalarla mübarizə aparır, bəlğəmgətiricidir.**

**Milli.Az medicina.az-a istinadən bildirir ki, dietoloq İrina Berejnaya zəncəfilin gözlənilmədən zərər verəcəyini bildirib.**

**”Boğaz, qrip, öskürəyin müalicəsində zəncəfilin kor-koranə, xüsusilə uşaq və yaşlılarda istifadəsi vəziyyəti ağırlaşdıra bilər.**

**Zəncəfil qızdırmada əks təsir verir, o istiliyi daxildən artıra bilər.**

**Eləcə də qastrit, mədə-bağırsaq xoralarında zəncəfil simptomları kəskinləşdirir.**

**Zəncəfilli müalicəvi içki hazırlamaq üçün 50 qram zəncəfil kökünü nazik dilimləyib, üzərinə qaynar su alıb, 15 dəqiqə saxlayıb, üzərinə bal və ya limon qatıb yeyə bilərsiz”.**

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**